

Milli azadlıqdan şirin nemət yoxdur!



# Azərbaycan növbəti il İƏT-in Zirvə görüşünə ev sahibliyi edə bilər

Bax səh. 3


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 dekabr 2024-cü il, çərşənbə

№ 223 (6809)

Qiyməti 60 qəpik


# 3 qitənin yeni səfirləri Bakıda...







Bax səh. 2

# 2025-ci il dövlət büdcəsinin layihəsi ikinci oxunuşda qəbul olunub

Bax səh. 3



# Yeni mərhələdə əsas ümummilli ideya

## Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış

Bax səh. 2

## Asan gömrük dəhlizi

Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması ilə bağlı Saziş qüvvəyə minib. Sənədə əsasən, türk dövlətlərinin apardığı ticarət əməliyyatları zamanı gömrük prosedurları asanlaşacaq və daşınma-logistika rejimi yumşaldılacaq, eləcə də qarşılıqlı ticarətin elektronlaşdırılması üzrə rəqəmsal məlumat mübadiləsi həyata keçiriləcək. Nəticədə yeni gömrük qaydaları sərhədkeçmə prosedurlarını asanlaşdırmaqla, vaxt və müddətləri qısaldacaq, türk dünyası arasında ticarətin optimallaşması baş verəcək.

**“Qarabağ Bəyannaməsi”nin hədəfləri gerçəkləşir**

Qeyd edək ki, türk dövlətləri...

Bax səh. 4

## Bank sektorunun yeni hədəfləri

Bakıda keçirilən VIII Beynəlxalq Bankçılıq Forumunda ölkəmizdə bank sektorunun inkişafı sahəsində son illərdə həyata keçirilən tədbirlərin əhəmiyyəti və müasir çağırşlardan irəli gələn yeni məqsəd və vəzifələr barədə müzakirələr aparılıb. “Azərbaycan Banklar Assosiasiyası”nın prezidenti Zakir Nuriyev bildirib ki, son illərdə bank sektorunda institusional mühiti daha da yaxşılaşdırılıb, ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində qanunvericilik bazası beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilib, bazara rəqabətə davamlı iştirakçıların daxil olması təmin edilib. Ödəniş xidmətləri həyata...

Bax səh. 4

## Etibarlı və sadiq təminatçı

Azərbaycan dekabrın 1-dən etibarən Avropa İttifaqının (Aİ) daha bir ölkəsinə - Slovakiyaya qazın nəqlinə başlayıb. Belə ki, Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan “SPP” şirkətinə qaz təchizatına start verilib. Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniyadan sonra respublikamızın müəllifi olduğu qaz alyansına Slovakiya da qoşulub. Bununla da, enerji tədarükü siyasətini şaxələndirən Azərbaycanın maye yanacaqla təchiz etdiyi ölkələrin sayı 12-yə çatıb...

Bax səh. 5

## Ermənistan tələsir, Qərb tələsdirir...

2024-cü il sona yaxınlaşdıqca Ermənistanın “sülh bəyanatları” da intensivləşir. Ən diqqətçəkən məqam isə aylarla, bəlkə də illərlə sülhə mane olan qüvvələrin də Ermənistanın “səsinə səs verməsi”, özünü sülhpərvər qiyafədə təqdim etməyə çalışmasıdır. Halbuki, 30 ilə yaxın işğaldan əziyyət çəkmiş Azərbaycan bu dövr ərzində də beynəlxalq hüququn təmini uğrunda dayanmadan mübarizə aparıb. Hələ Birinci Qarabağ müharibəsindən sonra Azərbaycan artıq tarixə qovuşmuş münaqişənin tənzimlənməsi üçün beynəlxalq konvensiyaların, aparıcı təşkilatların qətnamələrinin, xüsusilə BMT-nin...

Bax səh. 5



## Ukraynanı nə gözləyir?

Bax səh. 6



## Suriyada vətəndaş müharibəsi...

Bax səh. 6

# 3 qitənin yeni səfirləri Bakıda...

## Əməkdaşlığın inkişafı üçün böyük potensial var

### Prezident İlham Əliyev Mavritaniyanın yeni səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Mavritaniya İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sid Əhməd əl-Bekaye Hamadinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycanın və Mavritaniyanın ənənəvi olaraq dostluq şəraitində əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı bunun beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də qarşılıqlı dəstək və birgə fəaliyyətdə də özünü büruzə verdiyini dedi. Prezident İlham Əliyev müxtəlif sahələrdə münasibətlərimizin möhkəmləndirilməsinin önəminə toxunaraq, siyasi əlaqələrimizin genişləndirilməsinin, ikitərəfli əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin təşkilinin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ilk növbədə Mavritaniya Prezidenti Məhəmməd uld Şeyx əl-Qazuaninin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Sid Əhməd əl-Bekaye Hamadi vurğuladı ki, Mavritaniya Prezidenti dost ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsi ilə bağlı ona tapşırıqlar verib.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mavritaniya Prezidentinə çatdırmağı xahiş etdi.

Sid Əhməd əl-Bekaye Hamadi COP29-un çox uğurla keçirilməsi və Azərbaycan Prezidentinin müdrik rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanması və sürətli inkişafı münasibətilə təbriklərini çatdırdı.

Ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu deyən səfir səhiyyə, təhsil, kənd təsərrüfatı, balıqçılıq və mədənçilik sahələrindəki geniş imkanları qeyd etdi. O, həmçinin Mavritaniyadan olan tələbələr üçün Azərbaycanda təhsil təqaüdlərinin verilməsi imkanlarına baxılmasını xahiş etdi.

Görüşdə ikitərəfli iqtisadi-ticari əlaqələrin potensialının araşdırılması üçün müvafiq işçi qruplarının yaradılması və səfərlərin təşkil edilməsi məsələsi qeyd olundu.

Söhbət zamanı elm və təhsil sahələrində əməkdaşlıqla bağlı da fikir mübadiləsi aparıldı.

## İqtisadi əməkdaşlıqla bağlı imkanlar müəyyənləşdirilməlidir

### El-Salvadorun yeni səfiri İlham Əliyevin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də El-Salvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Enrike Haime Kalderonun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı əməkdaşlığımızın qurulması istiqamətində səfirin öz səylərini əsirgəməyəcəyinə, bu baxımdan onun Azərbaycanın rəsmi qurumları ilə səmərəli əlaqələr quracağına ümidvar olduğunu bildirərək, bir sıra sahələrdə, o cümlədən iqtisadi əməkdaşlıqla bağlı imkanların müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı.

Səfir, ilk növbədə, COP29-da ölkəsinin iştirakını məmnunluqla xatırlayaraq, bu tədbirin yüksək səviyyədə təşkil edilməsi ilə bağlı Azərbaycan Prezidentini təbrik etdi. O vurğuladı ki, COP29-un təşkili, ölkəmizin inkişafı və əldə etdiyi nailiyyətlər, Bakı şəhərinin gözəlliyi bu tədbir zamanı El-Salvadordan Azərbaycana səfərə gəlmiş nümayəndə heyətinə dərin təəssürat bağışlayıb.



Bu il Azərbaycanla El-Salvador arasında diplomatik münasibətlərin yaradılmasının 25 illiyinin qeyd edildiyini deyən Enrike Haime Kalderon müxtəlif istiqamətlərdə əməkdaşlığın qurulmasının vacibliyinə, o cümlədən infrastruktur, nəqliyyat, energetika sahələri üzrə ölkəsinə investisiya qoyuluşu imkanlarının müəyyən edilməsinin önəminə toxundu.

Səfir Azərbaycanın energetika sahəsində böyük uğurlar qazandığını vurğulayaraq, bu istiqamətdə ölkəmizin təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını bildirdi.

Dövlətimizin başçısı əlaqələrimizin irəli aparılması üçün, ilk növbədə, adi insanların və biznes dairələrinin ölkələrimiz barədə daha çox məlumatlanmalarının vacibliyinə toxundu.

Söhbət zamanı Azərbaycanla El-Salvador arasında iqtisadiyyat, ticarət, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edildi.

## Yəmən hər zaman Azərbaycanın yanındadır

### Bu ölkənin yeni səfiri etimadnaməsini dövlət başçımıza təqdim edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Yəmən Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Saleh Əhməd Turiqin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı COP29 zamanı Yəmənin vitse-prezidenti ilə görüşünü xatırladaraq, bunun əlaqələrimizin tarixində bu səviyyədə ilk görüş olduğunu qeyd etdi və orada müzakirə olunan məsələlərin həyata keçirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev ilk növbədə beynəlxalq müstəvidə qarşılıqlı dəstəyin davam etdirilməsinin, iqtisadi sahədə, o cümlədən ticarət, sərmayə qoyuluşu və digər istiqamətlərdə imkanların araşdırılmasının zəruriliyini bildirdi.

Səfir əvvəlcə Yəmən Prezident Şurasının sədri Rəşad Məhəmməd əl-Aliminin salamlarını və Azərbaycan xalqının rifahı ilə bağlı yeni uğurlar arzusunu Prezident İlham Əliyevə, həmçinin Yəmən xalqının salamlarını Azərbaycan xalqına çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Yəmən Prezident Şurasının sədrinə çatdırmağı xahiş etdi.

Məhəmməd Saleh Əhməd Turiq, eyni zamanda, bu günə qədər beynəlxalq təşkilatlar çərçivəsində Yəmənə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi və bunu yüksək qiymətləndirdiklərini dedi.



Səfir COP29-un çox yaxşı səviyyədə təşkili ilə bağlı təbriklərini ifadə edərək vurğuladı ki, bu tədbir dövlətimizin başçısının müdrik rəhbərliyini bütün dünyaya göstərdi, COP29-da iştirak edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gücünün, qüdrətinin bir daha şahidi oldular.

Məhəmməd Saleh Əhməd Turiq Azərbaycan ərazilərinin işğaldan azad edilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bu yaxınlarda Qarabağa səfərini məmnunluqla xatırladı və bundan şərəf duyduğunu dedi. Səfir dövlətimizin başçısının rəhbərliyi ilə orada aparılan bərpa və quruculuq işlərinin böyük heyranlıq doğurduğunu vurğuladı, qısa müddətdə şəhərlərin salınmasının, yol-nəqliyyat qovşaqlarının, tunellərin ərsəyə gətirilməsinin Azərbaycan dövlətinin gücünün bir daha təzahürü olduğunu qeyd etdi.

Diplomat Yəmənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, iki qardaş ölkə arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirdi. Səfir Yəmənin iqtisadi sahədə də Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğuladı və bununla bağlı ölkəsinin iş adamlarının Azərbaycana səfərinin təşkilinin önəmini qeyd etdi.

Hələ sovet dövründə Azərbaycanda Yəməndən çoxsaylı tələbənin təhsil aldığını və həmin mütəxəssislərin müxtəlif sahələrdə Yəmənin inkişafına töhfə verdiklərini deyən səfir yəmənli tələbələrin ölkəmizdə təhsil alması ənənələrinin davam etdirilməsinin vacibliyinə toxundu.

Söhbət zamanı Azərbaycanın və Yəmənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olundu, iqtisadiyyat, ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə işbirliyi imkanlarının araşdırılmasının vacibliyi bildirildi.

# Yeni mərhələdə əsas ümummilli ideya

## Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış

İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə ölkəmizin gündəliyində dayanan əsas məsələ ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsi idi. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan möhtəşəm qələbələr sayəsində bu məqsədlərə çatıldıqdan sonra isə bizim qarşımızda duran mühüm məsələlərdən biri zamanında Qərbi Azərbaycandan zorla qovulmuş soydaşlarımızın tarixi yurd yerlərinə ləyaqətli qayıdışına nail olmaqdan ibarətdir.




### Milli Məclisdə keçirilən ictimai dinləmə

Hazırda Azərbaycan cəmiyyəti bəhs olunan ümummilli ideya ətrafında sıx birləşib.  Bunun təsdiqi olaraq dekabrın 2-də parlamentdə Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış" mövzusunda ictimai dinləmə keçirilib. Dinləmədə Milli Məclisin deputatları, Prezident Administrasiyasının, Xarici İşlər Nazirliyinin, Mədəniyyət Nazirliyinin, Baş Prokurorluğun, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, AMEA-nın, Auditorlar Palatasının, Sosial Tədqiqatlar Mərkəzinin nümayəndələri, Qərbi Azərbaycan İcmasının üzvləri, ziyalılar, hüquqşünaslar, tarixçilər, sahə mütəxəssisləri, media orqanlarının rəhbərləri, təhsil ocaqlarının, dövlət qurumlarının, vətəndaş cəmiyyətinin təmsilçiləri və ekspertlər iştirak ediblər.

Ötən dövrdə parlamentdə Qərbi Azərbaycana qayıdışla bağlı müxtəlif komitələr tərəfindən 5 dəfə ictimai dinləmə keçirilib. Bu barədə dinləməni giriş sözü ilə açan Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri və Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərov məlumat verib. O bildirib ki, 1989-cu ildə yaradılan və Qərbi Azərbaycandan olan qaçqın soydaşlarımızın sosial və məskunlaşma problemləri ilə məşğul olan Azərbaycan Qaçqınlar Cəmiyyəti, Prezident İlham Əliyevin tövsiyəsi ilə 2022-ci ildə Qərbi Azərbaycan İcması adı ilə yenidən təşkil edilib. Bu addım, tarixi torpaqlarımız uğrunda mübarizəyə yeni təkan verərək, soydaşlarımızın dinc və təhlükəsiz qayıdışı üçün siyasi əsaslar yaradan "Qayıdış Konsepsiyası"nın hazırlanmasına zəmin yaradıb. Eyni zamanda, Prezident İlham Əliyevin liderliyi sayəsində İcmanın hazırladığı sənədlər qısa müddətdə beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də rəsmi sənədlər kimi təqdim edilib. Qurumun bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı, UNESCO ilə əməkdaşlığı genişlənib. 2024-cü ildə Qambiyada keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə 57 dövlətin yekun sənədində, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına dəstək ifadə olunması və Ermənistanın müsəlman irsinə qarşı törətdiyi vandalizmin qınanması Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirilib.




### Bir əsrdə dörd deportasiya

Tarixi yurd yerlərindən - bugünkü Ermənistanın yerləşdiyi Qərbi Azərbaycandan qovulan soydaşlarımız XX yüzillikdə dörd dəfə deportasiyaya məruz qalan bir toplumdur. 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. Ermənilər İrəvana sahiblənməklə kifayətlənmədilər. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Zəngəzurun Ermənistana verilməsi Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq, bununla da eyni zamanda, Türk dünyasını parçalamaq üçün atılmış bir addım idi.

İrəvanın və Zəngəzurun Ermənistana verilməsi ilə Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti ağır deportasiyaya məruz qalıb.

Qərbi Azərbaycandan soydaşlarımızın XX yüzillikdə sonuncu deportasiyası ötən əsrin səksəninci illərinin sonlarına təsadüf edir. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri yenidən baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm də ovaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayətlərə rəvac verildi. Həmin dövrədək Ermənistanın 170-dən çox kəndində  ancaq azərbaycanlılar yaşayırdılar, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Bütövlükdə, soydaşlarımız Ermənistanın 300-dən çox şəhər və kəndində məskunlaşmışdılar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı.

### Mühacirətdə olan Qərbi Azərbaycan hökumətinin yaradılmasına doğru

Azərbaycanlıların öz doğma torpaqlarına qayıdışı məsələsinə daha sistemli yanaşma olmalıdır. Bu məqamda vurğulamaq yerinə düşər ki, artıq Qərbi Azərbaycan İcması mühacirət hökumətinin qurulmasının anonsunu verib.

Qərbi Azərbaycan İcmasının gündəmə gətirdiyi bu ideya reallığa əsaslanır. Söhbət böyük bir toplumun hüquqlarının təmin edilməsindən gedir. Qayıdış hüququ beynəlxalq konvensiyalarda da təsbit olunub. Ermənistan dövləti soydaşlarımızın tarixi yurd yerərinə qayıdışına əngəllər yaratmamalı, əksinə onların ləyaqətli dönüşü üçün üzərinə beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklər götürməlidir.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan növbəti il İƏT-in Zirvə görüşünə ev sahibliyi edə bilər

## Ceyhun Bayramov İƏT Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasında ölkəmizin bu niyyətini açıqlayıb

**Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm yer tutur. Məhz bunun nəticəsidir ki, ölkəmiz bir sıra beynəlxalq təşkilatların fəal üzvüdür. Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində də aktiv siyasət həyata keçirir. Bu təşkilatlar arasında İqtisadi Əməkdaşlıq Təşkilatı xüsusi vurğulanmalıdır.**

### İranın Məşhəd şəhərində...

Qeyd edək ki, dekabrın 3-də İranın Məşhəd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 28-ci iclası keçirilib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iclasda iştirak edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Ceyhun Bayramov iclasdakı çıxışında İƏT çərçivəsində əməkdaşlığın gücləndirilməsi, təşkilatın institusional inkişafı, iqtisadi-ticarət, enerji təhlükəsizliyi, ətraf mühit, nəqliyyat və kommunikasiyalar, bağlantılar və s. istiqamətlər üzrə əməkdaşlıq imkanlarından istifadə ilə bağlı ölkəmizin baxışından bəhs edib. Nazirlər Şurasının 28-ci iclasının İƏT-in 2023-cü il oktyabrın 10-da Şuşa şəhərində keçirilən görüşündən bəri təşkilatın ehtiyacları və üzv dövlətlər arasında əməkdaşlıq imkanlarının gücləndirilməsi ilə bağlı əldə olunan irəliləyişlər və gələcək planların müzakirəsi baxımından əhəmiyyəti qeyd edilib.

Eləcə də, 2024-cü ildə təşkilata sədrliyinə, habelə Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasının təşkilinə və qonaqpərvərliyə görə İran İslam Respublikasına təşəkkür edilib, təşkilata növbəti il sədrlik edəcək Qazaxıstan Respublikasına uğurlar arzulanıb. C.Bayramov növbəti il ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə ev sahibliyi etmək niyyətində olduğunu, bu istiqamətdə bütün üzv ölkələrin aktiv iştirak və töhfələrinin vacibliyini diqqətə çatdırıb. Üzv dövlətlər arasında mövcud iqtisadi potensiala əsaslanan, bu istiqamətdə regional çağırışlarla mübarizədə hədəfləri təsbit edən və dayanıqlı inkişaf gündəliyi ilə uyğunluq təşkil edən "İƏT-ə Baxış 2025" strategiya sənədinin əhəmiyyəti vurğulanıb.

Nazir, həmçinin İƏT çərçivəsində müxtəlif sahələr, o cümlədən ticarət, investisiyalar, nəqliyyat, enerji təhlükəsizliyi, kənd təsərrüfatı, turizm, ətraf mühitin qorunması üzrə əməkdaşlığın təşviqi baxımından ixtisaslaşmış qurumların fəaliyyətinin vacibliyini qeyd edib. İƏT Araşdırma Mərkəzi və Təmiz Enerji Mərkəzinin ölkəmizdə fəaliyyət göstərəcəyi, bu baxımdan sözügedən qurumların effektivliyinin təmin olunması üzrə onların təsisat sənədlərinin imzalanması və ratifikasiyasının mühüm olduğu bildirilib.




İƏT ölkələrinin bir çoxunun dənizə çıxışı olmadığını nəzərə alaraq, C.Bayramov xüsusilə, Şimal-Cənub Dəhlizi, Şərq-Qərb Transxəzər Orta Dəhliz, Rəqəmsal İpək Yolu, Bakı-Tbilisi-Qars dəmiryolunun modernləşdirilməsini, habelə İran ərazisindən keçərək Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Şərqi Zəngəzur iqtisadi bölgəsini əlaqələndirəcək regional nəqliyyat və infrastruktur layihələrinin əhəmiyyətini diqqətə çatdırıb.

### İclasda "Məşhəd Kommünikesi" qəbul edilib

Ötən ay ölkəmizin ev sahibliyi etdiyi, İƏT regionunda ilk dəfə keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsindəki nailiyyətlərdən ətraflı bəhs edən nazir Bakı Maliyyə Məqsədi daxil olmaqla, COP29 çərçivəsində əldə edilmiş razılıqların iqlim dəyişikliyi ilə mübarizə istiqamətində vacib dönüş nöqtəsi olduğunu bildirib. Regional dayanıqlı inkişaf təşəbbüslərindən bəhs edən C.Bayramov bu istiqamətdə COP29 çərçivəsində imzalanmış "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in bölgəmizdə iqtisadi inkişaf və enerji təhlükəsizliyinin təminində müstəsna rol oynayacağına dair inamını ifadə edib.

İclasın sonunda "Məşhəd Kommünikesi" adlı yekun sənəd qəbul edilib.

Xatırladaq ki, Azərbaycan İƏT-ə 1992-ci ildə üzv qəbul edilib. Təşkilata üzv olduqdan sonra Azərbaycan dövlət və hökumət başçısı səviyyəsində İƏT-in sammitində təmsil olunub. Təşkilatın 9-cu və 12-ci zirvə toplantıları müvafiq olaraq 2006-cı və 2012-ci illərdə Bakıda reallaşıb, Bakı bəyannamələri qəbul edilib.

İƏT ölkələri dinamik inkişaf edən Azərbaycana daim önəm verib. Ötən il Azərbaycanın təşkilata sədrlik etməsi də bu etimadın göstəricisidir. Keçən il oktyabrın 10-da

### Şuşa şəhəri 2026-cı ildə təşkilatın turizm paytaxtı olacaq

təşkilatın sədri olaraq Azərbaycan İƏT-in Xarici İşlər Nazirləri Şurasının 27-ci iclasına evsahibliyi edib. Toplantı Qarabağın incisi Şuşa şəhərində keçirilməsi ilə əlamətdar oldu. Həmin il oktyabrın 4-5-də İranın Ərdəbil şəhərində İƏT-ə üzv dövlətlərin turizm nazirlərinin 5-ci iclasında Şuşa şəhəri təşkilatın 2026-cı il üçün turizm paytaxtı seçilib. Tədbir çərçivəsində üzv dövlətlər arasında turizm sahəsi üzrə mövcud əməkdaşlıq perspektivlərinə dair geniş müzakirə aparılıb, müvafiq sahə üzrə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi istiqamətində görüləcək tədbirlər nəzərdən keçirilib.

Bütövlükdə, Azərbaycan İƏT-in üzvü kimi təşkilatın işində fəal iştirakı önəmlidir. Bu fakt ölkəmizin yaxın regionlarda həyata keçirilən proseslərdə fəal iştirakının göstəricisidir.

*Nardar BAYRAMLI*

### Milli Məclisin iclasında...

# 2025-ci il dövlət büdcəsinin layihəsi ikinci oxunuşda qəbul olunub




Dekabrın 3-də Milli Məclisin növbəti iclası keçirilib. Əvvəlcə iclasda 2025-ci ilin büdcə zərfinə daxil olan məsələlər ikinci oxunuşda müzakirəyə çıxarılıb. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edərkən bildirib ki, növbəti ilin büdcə zərfində makroiqtisadi sabitlik, davamlı iqtisadi artım və büdcə dayanıqlığı iqtisadi siyasətin əsas hədəfləri olaraq müəyyən edilir. Sənəd rifaha və iqtisadi artıma yönəldilmiş xərclər bir-birini tamamlayır və günün reallıqlarını nəzərə alır.

Onun sözlərinə görə, sosial xərclərin həcmi və strukturu vətəndaşların sosial müdafiəsinin və rifahının dövlətin diqqət mərkəzində saxlanıldığını göstərir: "İqtisadiyyatın şaxələndirilməsi üçün stimullaşdırıcı və təşviqedici tədbirlər nəzərdə tutulur. Böyük Qayıdış proqramının maliyyələşdirilməsi Qarabağda və Şərqi Zəngəzurda yenidənqurma və bərpa prosesinə, bu ərazilərdə iqtisadi həyatın canlanmasına və məskunlaşmaya öz layiqli töhfəsini verəcək. İqtisadi və maliyyə imkanlarımıza adekvat olaraq müdafiə və milli təhlükəsizliyimiz üçün büdcə vəsaitlərinin artırılması həm ölkəmizin təhlükəsizliyinə, həm də regionda sülhün və sabitliyin qorunmasına xidmət edir. Büdcənin strateji istiqamətləri Azərbaycanın regionda iqtisadi, siyasi və hərbi lider mövqeyini daha da möhkəmləndirir".

A.Əmiraslanov deyib ki, büdcə layihəsinin ikinci oxunuşu İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müvafiq dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə müzakirə edilib. Komitə üzvləri tərəfindən qaldırılan məsələlər, suallar və təkliflərə aidiyyəti üzrə münasibətlər bildirilib, şərhlər verilib. Vurğulanıb ki, növbəti ilin büdcə layihəsi, ölkə rəhbəri tərəfindən müəyyən edilmiş strateji vəzifələr və təşəbbüslər, milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəfləri əks etdirir. Layihə, bu hədəflərin hər birinin icrası üçün zəruri maliyyə təminatını yaratmaq məqsədini daşıyır.

Aparılmış ilkin müzakirələrin nəticələri barədə məlumat verən komitə sədri deyib: "İlkin müzakirələrin nəticələri göstərir ki, Azərbaycanın 2025-ci il dövlət büdcəsi qanunvericiliyin tələblərinə və ölkənin strateji sənədlərinin müddəalarına uyğundur. Büdcə zərfinin birinci oxunuşunda deputatlar müxtəlif təkliflər irəli sürüb və layihəni konseptual olaraq dəstəkləyiblər ki, bu da büdcə müzakirələrinin parlament formatına uyğun olaraq təbii qiymətləndirilir. Lakin qeyd olunmalıdır ki, bütün gözləntilərin növbəti il üçün təqdim olunan büdcə zərfi vasitəsilə reallaşdırılması mümkün olmayacaq".

Büdcə prosesinin yalnız bir illə məhdudlaşmadığını və uzunmüddətli xarakter daşıdığını diqqətə çatdıran A.Əmiraslanov əlavə edib: "Bu baxımdan, büdcə hər zaman təkmilləşməyə məruz qalır və bu istiqamətdə Prezident İlham Əliyevin tapşırıqları ilə hökumət və Maliyyə Nazirliyinin həyata keçirdiyi mühüm işləri, parlament formatında büdcə müzakirələrinin ali maliyyə audit rəylərini, Milli Məclislə hökumət arasında səmərəli əməkdaşlığın əhəmiyyətini və töhfələrini xüsusi olaraq qeyd etmək lazımdır".

Müzakirələrdən sonra gələn ilin büdcə layihəsi ikinci oxunuşda qəbul olunub. Qeyd edək ki, 2025-ci il dövlət büdcəsinin gəlirləri 38 milyard 316 milyon manat, xərcləri 41 milyard 367 milyon 600 min manat məbləğində nəzərdə tutulur. Beləliklə, növbəti il üçün dövlət büdcəsinin gəlirləri 5,3 faiz, xərcləri isə 4,1 faiz artırılır. 2025-ci il üçün icmal büdcəsinin isə gəlirləri 43 milyard 911 milyon manat, xərcləri 47 milyard 589 milyon manat, kəsiri isə 3 milyard 679 milyon manat proqnozlaşdırılır.

Daha sonra millət vəkilləri gündəlikdə olan digər məsələləri müzakirə ediblər.

*Nardar BAYRAMLI*

# Azərbaycan neokolonializmlə mübarizə aparan xalqları dəstəkləyir

## Bakı Təşəbbüs Qrupu bu istiqamətdə fəaliyyət coğrafiyasını genişləndirir

Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb.



Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə, eləcə də xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların hüquqları ilə bağlı iyirmidən çox beynəlxalq konfrans təşkil edib. Yeri gəlmişkən, dekabrın 2-də BMT-nin Nyu-Yorkdakı baş qərargahında Afrika əsilli xalqların hüquqları üzrə ekspertlər işçi qrupunun 35-ci sessiyası öz işinə başlayıb. Bu tədbir Afrika əsilli xalqların hüquqlarının müdafiəsi və tarixi ədalətsizliklərin nəticələrinin aradan qaldırılması sahəsində mühüm beynəlxalq platformalardan biri kimi tanınır. Tədbirdə məqsəd əsasən Afrika əslli xalqların müstəmləkəçilik siyasətindən gördüyü zərərlər ətrafında fikir mübadiləsi aparmaqdır. Müstəmləkəçiliklə mübarizədə fəal beynəlxalq QHT olaraq Bakı Təşəbbüs Qrupu da tədbirə dəvət alıb.

Konfransda çıxış edən təşkilatın icraçı direktoru Abbas Abbasov qrupun fəaliyyət coğrafiyasının genişlənməsi ilə bağlı məlumat verib və müstəmləkə regionlarındakı cari vəziyyəti tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həmin regionlarda Afrika əslli xalqların da yaşadığını qeyd edən BTQ-nin icraçı direktoru təşkilat olaraq onların apardığı müstəqillik mübarizələrinə beynəlxalq hüquq çərçivəsində dəstək verməyə və aidiyyəti beynəlxalq təşkilatlara çağırış etməyə davam edəcəklərini bəyan edib. Abbas Abbasov BTQ-yə, onun üzvlərinə, müstəmləkələrdə yaşayan və müstəqillik tərəfdarları olan şəxslərə müəyyən təzyiqlərin olduğunu da qeyd edib. "Bu əslində təbiidir, çünki indiyə kimi, Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə qədər dünya ictimaiyyəti bu müstəmləkələrin mövcudluğundan xəbərsiz idilər və bu regionlarda həyata keçirilən çirkin müstəmləkəçilik fəaliyyətləri haqqında geniş məlumat əldə edə bilmirdilər. Qrupun BMT-də keçirdiyi beynəlxalq konfranslardan, aidiyyəti qurumlara müvafiq hesabatlar təqdim etməsindən sonra bu cür informasiyalar daha geniş formada dünya ictimaiyyətinin diqqətinə çatdırıldı",- deyə icraçı direktor əlavə edib.

Afrika əsilli xalqların hüquqları üzrə ekspertlər işçi qrupunun 35-ci sessiyası dekabrın 6-dək davam edəcək.

BTQ sessiyada iştirak etməklə yanaşı, öz fəaliyyətlərini, əldə etdiyi nailiyyətlər və qarşıdakı prioritetlərini təqdim edir. Təşkilat, müstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının beynəlxalq səviyyədə tanınmasına, tarixi ədalətsizliklərin aradan qaldırılmasına və bu xalqların azadlıq mübarizəsinə dəstək vermək məqsədilə fəaliyyətini davam etdirir.

Yeri gəlmişkən, Bakı Təşəbbüs Qrupu ölkəmizdə keçirilən COP29 çərçivəsində də bir sıra tədbirlər təşkil edib. Məsələn, BTQ SAHEL Konfederasiyasını təmsil edən ASRAD təşkilatla birgə COP29 çərçivəsində "Müstəmləkəçiliyin Afrikada investisiya perspektivlərinə mənfi təsirləri" mövzusunda tədbir keçirib. Tədbirdə Afrikada kolonial keçmişin yaratdığı dərin sosial-iqtisadi problemlər və onların qitədə investisiya imkanlarına mənfi təsiri müzakirə olunub. "Ekomüstəmləkə: müstəmləkə və neokolonial istismarın ətraf mühit mirası" mövzusunda da təşkil olunan tədbir də bu baxımdan önəmlidir.

**Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə qədər dünya ictimaiyyəti bu müstəmləkələrin mövcudluğundan xəbərsiz idilər və bu regionlarda həyata keçirilən çirkin müstəmləkəçilik fəaliyyətləri haqqında geniş məlumat əldə edə bilmirdilər**

Onu da qeyd edək ki, Bakı Təşəbbüs Qrupu COP29 çərçivəsində dekolonizasiya və yaşıl gələcəyə həsr edilən konfrans da keçirib. "Dekolonizasiya və yaşıl gələcək naminə həmrəylik" adlı tədbirdə vaxtı ilə müstəmləkəçiliyə məruz qalmış Afrikanın Mali, Keniya, Konqo Demokratik Respublikası, Nigeriya, Cibuti, Toqo, Mavritaniya, Zimbabve, Zambiya və Kamerundan olan deputatlar, qeyri-hökumət təşkilatlarının rəhbərləri, siyasətçilər, ekoaktivistlər, hüquq müdafiəçiləri iştirak ediblər.

Tədbirdə keçmiş koloniyalardakı ekoloji çağırışlara diqqət yetirilərək, Afrika qitəsi üçün yaşıl və xarici müdaxiləsiz gələcəyə doğru ən optimal yollar ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələr bu regionlarda müstəmləkəçiliyin mənfi təsirləri, davamlı inkişaf və ekoloji bərpa və dayanıqlılığı təşviq edən məsələləri əhatə edib. Tədbirdə iştirak edən afrikalı deputatlar öz ölkələrindəki keçmiş müstəmləkəçi dövlətlərlə münasibətlərdən söz açaraq, həmin dövlətlərin müstəmləkəçi siyasətini davam etdirməsindən danışıblar və kolonializmin yeni təzahürlərini icra etməyə cəhd etmələrini pisləyiblər. Xüsusilə də, Fransa dövlətinin müstəmləkə siyasəti nəticəsində Afrikanın Sahel bölgəsindən qovulduğunu vurğulayıblar. Dekolonizasiya prosesinin uğurlu olması üçün onun kağız üzərində deyil, əməllərlə sübut olunmalı olduğunu vurğulayan natiqlər dövlətlər arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərinin labüdlüyünü qeyd ediblər. Tədbirdə hazırda müstəmləkəçilik altında olan bölgələrin tezliklə dekolonizə edilməsinin vacibliyi bildirilib. Natiqlər, həmçinin, müstəmləkəçiliyin Afrikada dərin iz buraxdığını, onun təsirlərinin bu gün də hiss olunduğundan söz açıblar.

Bütövlükdə, BTQ-nin belə təşəbbüslərdə iştirakı Azərbaycanın beynəlxalq səviyyədə dekolonizasiya proseslərindəki liderlik rolunu nümayiş etdirir. Bu, həm də ölkəmizin müstəmləkəçilikdən zərər çəkmiş xalqların hüquqlarının bərpasına verdiyi töhfələrin göstəricisidir. Beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən Bakı Təşəbbüs Qrupunun bu sahədəki fəaliyyəti, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq və hüquq mübarizəsinə dəstək məqsədilə aparılan qlobal səylərin mərkəzində yer alır.

*N.BAYRAMLI*

# Asan gömrük dəhlizi

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması ilə bağlı Saziş qüvvəyə minib. Sənədə əsasən, türk dövlətlərinin apardığı ticarət əməliyyatları zamanı gömrük prosedurları asanlaşacaq və daşınma-logistika rejimi yumşaldılacaq, eləcə də qarşılıqlı ticarətin elektronlaşdırılması üzrə rəqəmsal məlumat mübadiləsi həyata keçiriləcək. Nəticədə yeni gömrük qaydaları sərhədkeçmə prosedurlarını asanlaşdırmaqla, vaxt və müddətləri qısaldacaq, türk dünyası arasında ticarətin optimallaşması baş verəcək.**

## Türk dövlətləri arasında ticarətin yumşaldılmasını təmin edən sadələşdirilmiş gömrük rejimi yaradılıb

### "Qarabağ Bəyannaməsi"nin hədəfləri gerçəkləşir

Qeyd edək ki, türk dövlətləri sadələşdirilmiş gömrük rejiminin yaradılması barədə niyyətini 2022-ci il noyabrın 11-də Səmərqənddə keçirilən Zirvə Görüşündə bəyan edib. TDT ölkələri tərəfindən imzalanan "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişdən irəli gələn hüquqi çərçivə ötən 2 il ərzində müvafiq orqanlar arasında hazırlandıqdan sonra 2024-cü il noyabrın 29-da qüvvəyə minib. Eyni zamanda, Türkiyə, Türkmənistan, Azərbaycan, Özbəkistan, Qazaxıstan arasında Gömrük Əməkdaşlığı üzrə Birgə Məşvərət Komissiyasının yaradılması da azad ticarət dəhlizinin fundamental əsaslarından birini təşkil edir.

Yeri gəlmişkən, yeni təsisatın yaradılması türk dövlətlərinin 2024-cü ilin iyul ayında Şuşa şəhərində imzaladığı "Qarabağ Bəyannaməsi"ndə əks edilmiş iqtisadi-ticari hədəflərə uyğundur. Bəyannamənin əsas prinsiplərindən biri TDT-nin kollektiv ticarət alyansının yaradılması və bu məqsədlə gömrük rejimlərində asan preferensial (qarşılıqlı güzəşt) qaydaların tətbiqi ilə bağlıdır. Preferensial sazişlərin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, iqtisadi əlaqələrin və ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasını nəzərdə tutur. Bu baxımdan tərəflər arasında mərhələli şəkildə idxal və ixrac olunan bir sıra məhsulların idxalına tətbiq edilən gömrük rüsumlarını qarşılıqlı olaraq azaldılması istisna deyil.



### Kompüterləşdirilmiş Tranzit Sisteminin yaradılması

TDT-nin yeni iqtisadi baxış siyasətinə əsasən, ölkələr arasında rəqəmsal azad ticarət rejiminin təmin olunması da əsas prinsiplərdən biridir. Bu, üzv ölkələr arasında qarşılıqlı olaraq ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması deməkdir. Nəticədə hər iki sənədin ən mühüm prioritetlərdindən biri qüvvəyə minməklə ticarət əməkdaşlığı sahəsində vahid strategiyanı müəyyən edəcək. Sadələşdirilmiş gömrük dəhlizinin yaradılması TDT-nin digər əsas hədəflərindən biri olan ticarətin rəqəmsallaşdırılması konseptinə çatmağa da imkan verəcək. Bu məqsədlə tərəflər Türkiyədə qüvvədə olan Kompüterləşdirilmiş Tranzit Sistemi (DEPA) təcrübəsini tətbiq edəcək. DEPA sazişi qardaş ölkələr arasında qarşılıqlı ticarətin və xarici investisiyaların həcminin artırılması, birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığın daha da güclənməsi, eləcə də biznes qurumları arasında işgüzar münasibətlərin genişlənməsi üçün hüquqi əsaslar yaradır.

Sözsüz ki, sadələşdirilmiş gömrük dəhlizinin yaradılması türk dövlətləri arasında əmtəə dövriyyəsinin də artmasına səbəb olacaq. Hazırda bu dövlətlərin apardığı qarşılıqlı xarici ticarət dövriyyəsinin həcmi təxminən 45-48 milyard dollar təşkil edir. Bu, onların ümumi ticarət dövriyyəsinin 5 faizi deməkdir. Ancaq potensial bundan ən azı 10 dəfə böyükdür. Ona görə də türk dövlətləri öz iqtisadi güc və potensiallarını vahid zəncirdə birləşdirməklə regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında rolunu artırmaq niyyətindədir. Mövcud axıcı nəqliyyat infrastrukturlarının daha da müasirləşdirilməsi və beynəlxalq transregional dəhlizlərə inteqrasiyaların genişləndirilməsi bu hədəflərin reallaşmasına imkan verməklə, TDT-nin qlobal ticari coğrafiyalarda üstün mövqeyini möhkəmləndirəcək.

**Sadələşdirilmiş gömrük dəhlizinin yaradılması türk dövlətləri arasında əmtəə dövriyyəsinin də artmasına səbəb olacaq. Hazırda bu dövlətlərin apardığı qarşılıqlı xarici ticarət dövriyyəsinin həcmi təxminən 45-48 milyard dollar təşkil edir. Bu, onların ümumi ticarət dövriyyəsinin 5 faizi deməkdir. Ancaq potensial bundan ən azı 10 dəfə böyükdür**

Türk dövlətləri iqtisadi-ticari dövriyyənin yüksəldilməsi məq-

### İkiqat vergitutmanın aradan qaldırılması

sədilə asan vergi rejiminin də yaradılması istiqamətində iradəli addımlar atmaqdadır. TDT ölkələrinin demək olar ki, hamısı arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalanıb ki, bu da dövlətlərarası mal və xidmət ticarətini, kapitalın, texnologiyanın və şəxslərin sərbəst hərəkətini, eləcə də özəl sərmayələrin axınını stimullaşdırmaq məqsədi güdür.

Beləliklə, ölkələr arasında ticarətin liberallaşdırılması, sərhəd-keçid sistemlərinin rəqəmsallaşması sayəsində daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsinin qurulması, gömrük prosedurlarının asanlaşdırılması və preferensial ticarətin təmin olunması nəzərdə tutulur ki, bütün bunlar son nəticədə əsas niyyət olan Azad Ticarət Rejiminin formalaşmasına səbəb olacaq. Bu isə türk dövlətlərinin regional iqtisadi inteqrasiyası istiqamətində bağlantılarını daha da artıracaq.

***ELBRUS CƏFƏRLİ***

# Bank sektorunun yeni hədəfləri

## Rəqəmsal ekosistemin möhkəmlənməsi bankların iqtisadi inkişafa töhfəsini artıracaq

**Bakıda keçirilən VIII Beynəlxalq Bankçılıq Forumunda ölkəmizdə bank sektorunun inkişafı sahəsində son illərdə həyata keçirilən tədbirlərin əhəmiyyəti və müasir çağırışlardan irəli gələn yeni məqsəd və vəzifələr barədə müzakirələr aparılıb. "Azərbaycan Banklar Assosiasiyası"nın prezidenti Zakir Nuriyev bildirib ki, son illərdə bank sektorunda institusional mühiti daha da yaxşılaşdırılıb, ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində qanunvericilik bazası beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilib, bazara rəqabətə davamlı iştirakçıların daxil olması təmin edilib. Ödəniş xidmətləri həyata keçirən 14 elektron pul, 8 ödəniş təşkilatı və bir ödəniş sistemi operatorunun fəaliyyəti lisenziyalaşdırılıb.**

### Milli ödəniş sisteminin dövriyyəsi 4 dəfəyə yaxın artıb

Həyata keçirilən islahatlar nəticəsində son 3 ildə milli ödəniş sistemi infrastrukturu, o cümlədən Real Vaxt Rejimində Hesablaşmalar Sistemi (AZIPS), Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) və Ani Ödənişlər Sistemi (AÖS) vasitəsilə aparılan ödəniş əməliyyatlarının ümumi dövriyyəsi 3,6 dəfə artaraq 2024-cü ilin yanvar-oktyabr aylarında 606 milyard manat təşkil edib. Bu, qeyri-ödəniş kanalları rəqəmsal bank ekosisteminin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edərək ümumu dövriyyəni də yüksəldib. Belə ki, qeyd edilən dövrdə ödəniş kartları ilə ölkə daxilində aparılan əməliyyatların təxminən 64 faizi nağdsız formada həyata keçirilib. Eyni zamanda, bankların iqtisadiyyatda iştirakçılıq əmsalı yüksəlib, kreditvermə potensialı böyüyüb. Cari il noyabrın 1-nə banklarının biznes krediti portfeli illik müqayisədə 19,4 faiz artaraq 19,4 milyard manat təşkil edib.

**Banklar və maliyyə institutları müasir rəqəmsal inkişaf mühitində fəallığı daha da artırmaq, Mərkəzi Bank və digər maliyyə qurumları ilə birlikdə koordinasiyalı çalışmaq niyyətindədir**

Forumda çıxış edən bank sektorunun nümayəndələrinin fikrincə, banklar və maliyyə institutları müasir rəqəmsal inkişaf mühitində fəallığı daha da artırmaq, Mərkəzi Bank və digər maliyyə qurumları ilə birlikdə koordinasiyalı çalışmaq niyyətindədir. İcrasına yeni start verilmiş "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"na uyğun olaraq sığorta, kapital bazarları və ödəniş sistemlərinin inkişaf etdirilməsi nəzərdə tutulur. Yeni strateji mərhələdə məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

**İcrasına yeni start verilmiş "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"na uyğun olaraq sığorta, kapital bazarları və ödəniş sistemlərinin inkişaf etdirilməsi nəzərdə tutulur. Yeni strateji mərhələdə məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır**

### "Açıq bankçılıq" platformasının qurulması

Azərbaycan bankları üçün strateji hədəflərdən biri "Açıq bankçılıq" imkanlarının artırılması ilə bağlıdır. Mərkəzi Bankın İdarə Heyətinin üzvü Vüsal Xəlilovun fikrincə, "Açıq bankçılıq" və "Açıq maliyyə təşəbbüsü" inklüziv, şəffaf və effektiv maliyyə eksisteminin yaradılmanın genişlənməsinə səbəb olacaq.

Strateji hədəflərdən biri rəqəmsal ödəniş sektorunun qabaqcıl beynəlxalq təcrübə əsasında daha da inkişaf etdirilməsidir ki, bu layihə üzrə lokal ödəniş kartlarının emissiyası gücləndiriləcək. Bu çərçivəyə əsasən, daha əlverişli tarif siyasətinin tətbiqi nəzərdə tutulur. Bu məqsədlə yerli və xarici ödəniş sistemi operatorlarına mövcud tarif siyasətini təhlil etmək və sui-istifadə hallarının aradan qaldırmaq tapşırığı verilib. Nəticədə ödəniş kartlarının emissiyası bank və kart bazarında rəqabəti daha da təşviq etməklə, xidmət haqlarının effektiv formada tənzimlənməsinə yeni imkan verə-




sını hədəfləyir ki, bu yanaşma banklar, fintexlər və istehlakçılar üçün yeni imkanlar yaradacaq. Banklar üçün yeni gəlir mənbələri, optimallaşdırılmış xidmətlər və müştəri təcrübəsi, fintexlər üçünsə banklarla əməkdaşlıq, qabaqcıl maliyyə həllərinə giriş imkanı genişlənəcək. İstehlakçılara isə daha çox seçim etmək imkanı yaranacaq, onlar şəffaf və təhlükəsiz maliyyə qurumlarını daha asan görə biləcəklər. Nəticədə bu layihə Ani Ödənişlər Sisteminin infrastrukturunu da təkmilləşdirməklə, "sandbox" rejiminin (əməliyyat sistemlərinin təhlükəsizliyi) tətbiqi-

Rəqəmsal transformasiya sahəsində aparılan islahatların mühüm tərkib hissəsi kimi məsafədən bank hesablarının açılması prosedurlarının da sadələşdirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulur. Bu, müştərilərin banka getmədən və vaxt sərf etmədən onlayn xidmət kanalları ilə bütün növ hesabları açmaq və əməliyyatları aparması işini daha da asanlaşdıracaq. bank icması islahatların növbəti fazası çərçivəsində geniştutumlu bank xidmətləri şəbəkəsi yaratmaq üçün xarici bank institutları, xüsusilə də türk dövlətləri ilə əməkdaşlığı da artırmağı plan-

### Türkiyə ilə ortaq bank layihələri

laşdırır. Türkiyənin Bank Tənzimləmə və Nəzarət Agentliyinin sədr müavini Mustafa Aydının sözlərinə görə, iki ölkə artıq bu sahədə ortaq layihələrə start verib.

Ümumilikdə, strategiya sənədinin həyata keçirilməsi müəyyən edilmiş məqsədlərə çatmaqla yanaşı, bank sektorunun bazar potensialının artması, Mərkəzi Bankın müvafiq keyfiyyət tələbləri və risk əsaslı nəzarət mexanizmlərinin güclənməsi, rəqəmsal və dayanıqlı maliyyə ekosisteminin möhkəmlənməsini təmin edəcək. Nəticədə bu islahatlar bank bazarına olan etimadı gücləndirəcək, yüksək inkişaf potensialı olan ölkəmizin kapital bazarlarının maliyyə sistemində rolunu artıracaq və iqtisadi inkişafa töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Etibarlı və sadiq təminatçı

## Azərbaycanın qaz nəql etdiyi ölkələrin sayı 12-yə çatıb

**Azərbaycan dekabrın 1-dən etibarən Avropa İttifaqının (Aİ) daha bir ölkəsinə - Slovakiyaya qazın nəqlinə başlayıb. Belə ki, Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan "SPP" şirkətinə qaz təchizatına start verilib. Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniyadan sonra respublikamızın müəllifi olduğu qaz alyansına Slovakiya da qoşulub. Bununla da, enerji tədarükü siyasətini şaxələndirən Azərbaycanın maye yanacaqla təchiz etdiyi ölkələrin sayı 12-yə çatıb.**

Bu, hələ son deyil, hazırda bir neçə Avropa ölkəsi də öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycandan qaz əldə etməklə bağlı danışıqlar aparır. Bir neçə ay əvvəl keçirilən Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Aİ ölkələri qaz təchizatımızın coğrafiyasının və həcmlərinin artırılması üçün Bakıya müraciətlər edib. Bu, ötən 20 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi sadiq tərəfdaşa çevrilmiş respublikamıza olan inamın təzahürü olmaqla, qaz əməkdaşlığında da diqqətlərin ölkəmizə yönəlməsini aktuallaşdırır.

**Hazırda bir neçə Avropa ölkəsi də öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycandan qaz əldə etməklə bağlı danışıqlar aparır. Bir neçə ay əvvəl keçirilən Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Aİ ölkələri qaz təchizatımızın coğrafiyasının və həcmlərinin artırılması üçün Bakıya müraciətlər edib. Bu, ötən 20 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısı kimi sadiq tərəfdaşa çevrilmiş respublikamıza olan inamın təzahürü olmaqla, qaz əməkdaşlığında da diqqətlərin ölkəmizə yönəlməsini aktuallaşdırır**

### TAP-ın ixrac coğrafiyası genişlənir

Region ölkələri digər qaz xətti tranzitlərindən daha çox Cənub Qaz Dəhlizinə üstünlük verir ki, bunun da başlıca səbəbi Azərbaycanın yanacaq amilindən heç vaxt siyasi alət kimi istifadə etməməsi, həmçinin, ədalətli qiymət siyasəti yürütməsi ilə bağlıdır.

Azərbaycanın ixracını şaxələndirməsi nəql üçün resursların artırılmasını da tələb edir. Bu baxımdan yeni qaz yataqlarındakı blokların hərəkətə gətirilməsi və TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır.




### 2025-ci ilin hədəfi - 25 milyard kubmetr

Mütəxəssislərin apardığı kəşfiyyat işləri nəticəsində əldə edilmiş qiymətləndirmələrə əsasən, Azərbaycan Xəzər regionunda kifayət qədər qaz ehtiyatlarına malikdir və təsdiq edilmiş ehtiyatların həcmi 2,6 trilyon kubmetr proqnozlaşdırılır. Bu həcm daxili tələbat və ixracla birlikdə ən azı 100 ilə kifayət edir. Bu baxımdan Azərbaycanın Avropa Birliyinin qaz təchizatında uzun illər ərzində dayanıqlı tədarükçü dövlət olacağı şübhəsizdir. Xəzərin Azərbaycan sektorunda yerləşən "Babək", "Naxçıvan", "Zəfər-Məşəl", "Ümid", "Araz-Alov-Şərq" və "Şəfəq-Asiman" perspektiv strukturlarında proqnozlaşdırılan ehtiyatlar 2,6 trilyondan da çox mənbələrin formalaşmasına əsaslı zəmin yaradır.

Həmin resurslar isə hən qazın ixrac həcmlərini artırmağa, həm də yeni tərəfdaşların bu ailəyə qoşulmasına səbəb olacaq. Qiymətləndirmələrə əsasən, 2025-ci ildə ölkəmzin ixracı 25 milyard kubmetri ötəcək. Həmin yanacağın 11 milyard kubmetri Gürcüstan və Türkiyəyə, qalan 13-14 milyard kub.metri Aİ ölkələrinə yönələcək. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə başqa ölkələrə də qaz nəqlini təmin edə biləcək. Yaxın illərdə Moldova, Avstriya, Albaniyanın da ölkəmizdən qaz alması gözlənilir. Azərbaycan qazının Yunanıstan-Bolqarıstan ötürücü innektor vasitəsilə Bosniya-Herseqovina və Monteneqroya çatdırılması da nəzərdə tutulur. Beləliklə, Azərbaycandan qaz əldə edən Avropa ölkəsinin sayı 10-u ötmüş olacaq ki, bu da ümumilikdə Avropa Birliyi regionunun təxminən 40 faizinin ölkəmizin sayəsində enerji təhlükəsizliyini təmin etməsini reallaşdıracaq.

**Yaxın illərdə Moldova, Avstriya, Albaniyanın da ölkəmizdən qaz alması gözlənilir. Azərbaycan qazının Yunanıstan-Bolqarıstan ötürücü innektor vasitəsilə Bosniya-Herseqovina və Monteneqroya çatdırılması da nəzərdə tutulur**

### TAP türk dövlətlərini də Avropaya bağlaya bilər

Avropa İttifaqı Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasnı və bununla da təkcə bu meqamagistraldan Avropaya illik 100 milyard kub.metrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Artıq bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır və bu beynəlxalq öhdəliyi isə ilk növbədə Azərbaycan və Türkiyə öz üzərinə götürüb. 2024-cü ilin iyul ayında Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi vasitəsilə Türkiyəyə tədarükü ilə bağlı əldə olunmuş razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum-TANAP vasitəsilə nəql olunacaq, gələcəkdə isə TAP-la Avropaya ixracı nəzədə tutulur.

*E.CƏFƏRLİ*

# Ermənistan tələsir, Qərb tələsdirir...

## Hamı sülh istəyirsə, İrəvan niyə şərtlərə əməl etmir?

2024-cü il sona yaxınlaşdıqca Ermənistanın "sülh bəyanatları" da intensivləşir. Ən diqqətçəkən məqam isə aylarla, bəlkə də illərlə sülhə mane olan qüvvələrin də Ermənistanın "səsinə səs verməsi", özünü sülhpərvər qiyafədə təqdim etməyə çalışmasıdır. Halbuki, 30 ilə yaxın işğaldan əziyyət çəkmiş Azərbaycan bu dövr ərzində də beynəlxalq hüququn təmini uğrunda dayanmadan mübarizə aparıb. Hələ Birinci Qarabağ müharibəsindən sonra Azərbaycan artıq tarixə qovuşmuş münaqişənin tənzimlənməsi üçün beynəlxalq konvensiyaların, aparıcı təşkilatların qətnamələrinin, xüsusilə BMT-nin məlum 4 qətnaməsinin icrasının vacibliyini önə çəkirdi - bütün dönəmlərdə prosesin sülh məstəvisində, danışıqlar yolu ilə tənzimlənməsi üçün səy göstərirdi. Bu gün sülhdən danışan dairələr və ölkələr isə gözlərini və qulaqlarını qapayaraq prosesi görməzdən gəlirdilər. Məhz bu münasibətdən cəsarətlənən Ermənistan Azərbaycanın illərlə səsləndirdiyi sülh çağırışlarına məhəl qoymayaraq yeni işğallar haqda "bəyanatlar" verməyə başladı.

2020-ci il Vətən müharibəsi nəticəsində isə Azərbaycan beynəlxalq hüququ və ədaləti bərpa etdi - ölkəmizin ərazi bütövlüyü təmin olundu. Azərbaycan qalib tərəf olsa da, yenə də sülh danışıqlarını ən vacib element olaraq önə çəkdi - uzun illərdən sonra Cənubi Qafqazda davamlı və etibarlı sülh üçün zəmin yaranmasının vacibliyini ortaya qoydu. 2022-ci ildən Azərbaycanın təşəbbüsü ilə meydana çıxan proses 2024-cü il ərzində müəyyən irəliləyişlər əldə etsə də, konkret Qərbin Ermənistan üzərindən manipulyasiyalar aparması nəticəsində uğurlu sonluğa çatmır.

### Sülh üçün...

Bu gün tamam fərqli bir mənzərənin şahidiyik - danışıqlar prosesinin hazırkı fazasında razılaşdırılmamış bəzi müddəalar iki ölkə arasında sülh prosesinin nəticəyə hasil olmasına əngəl yaradır. Bu müddəalar isə mütləq və zəruri xarakter daşıyır. Çünki məhz bu müddəalar olmayacağı təqdirdə bölgəyə əbədi sülhün gəlməsi mümkün deyil - ermənilərin gələcək illərdə yenidən revanşizm arzusuna düşəcəyini isə istisna etmək olmaz. Bu baxımdan imzalanacaq sənəddə bütün suallar öz cavabını tapmalıdır. Ərazilərin demarkasiyası və delimitasiyası dəqiq araşdırılmalı və orada əks olunmalı, qarşıdakı illərdə hər hansı bir iddianın olmayacağına əminlik formalaşdırılmalı və öhdəlik olaraq götürülməli, qondarma iddialardan əl çəkilməli və bu öhdəlik Ermənistanın Azərbaycana qarşı iddialarının əks olunduğu rəsmi sənədlərdən çıxarılmalı, beynəlxalq platformalar üzrə Qarabağ məsələsinin tam bitdiyi elan edilməli və ATƏT-in Minsk Qrupunun rəsmən ləğv olunması bəyan edilməli, bölgədə hər hansı bir təhdidin qalmadığına əminlik yaradılmalı və təhlükəsizlik arxitekturasına yaranacaq təhdidlər aradan qaldırılmalıdır. Bir sözlə, sülh hərtərəfli və məzmunlu, dolğun olmalı, bütün ən xırda predmetlərə qədər açıq sual buraxmamalıdır. Paşinyanın və ya Mirzoyanın, ABŞ-ın və ya Fransanın "tələsik sülh imzalanması" tələsdirmələri isə onların "yarımçıq sülh" axtarışında olduğunu göstərir.



Maraqlı bir ziddiyyət ortaya çıxır - əgər Qərb Ermənistanın Azərbaycan ilə sülh müqavilısi imzalamasında maraqlıdırsa, nə üçün Ermənistanı sülh şərtlərinə razı salmır? İllərlə Ermənistanın işğalçı siyasətinə haqq qazandıranlar, prosesi susqunluqla izləyənlər yenə də eyni mövqeni paylaşır - sözdə sülh haqqında danışır, amma real situasiyanın sülhə doğru yol alması üçün heç bir məsələdə İrəvana təzyiq göstərmir. Əksinə, sülhdən danışanlar Ermənistana silah-sursat daşıyır, modern komplekslər hədiyyə edir, qarşılıqsız olaraq silahlandırır. Təsadüfi deyil ki, işğalçı ölkə gələn il üçün rekord həcmdə - 1,7 milyard ABŞ dolları dəyərində hərbi büdcə müəyyən edib. Ermənistan Birləşmiş

### Qərb sülhdən danışır və Ermənistanı silahlandırır...

Ştatlar və Fransa ilə birgə hərbi təlimlər keçirir. Ötən həftəsonu Ermənistanın Azərbaycanla sərhəddə fəaliyyət göstərən "Yerkrapa" birliyinin rəhbəri, baş nazir Nikol Paşinyana yaxınlığı ilə tanınan Sasun Mikayelyan mövqelərə baxış keçirib. Mikayelyan sərhəddə qruplaşma üzvləri ilə görüşüb. Mövqelərdə "xidmət"in yaxşı həyata keçirildiyini, mənəvi-psixoloji vəziyyətin yaxşı olduğunu bildirib. Demək ki, Ermənsitan sülhü dildə deyir - əməldə başqa ideyaya qulluq edir.

Qərbin tələskənliyi də onu sübut edir ki, sülh çağırışları səmimi davranış deyil - onlar sadəcə özlərini sülh üçün çalışan tərəf kimi qələmə vermək niyyətindədir.

### Qərbin boğazdan yuxarı "sülh balladası"...

Sülhdən bəhs açan ölkələrin, qurumların və ya təşkilatların nümayəndələri, səfirləri, məsələ ilə bu və ya digər şəkildə maraqlanan şəxslər də danışır - amma sülh üçün heç bir iş görmür. Onlar Ermənistanın siyasi rəhbərləri ilə keçirdikləri görüşlərində onları qeyri-adekvat mövqedən çəkindirmir, ölkə Konstitusiyasındakı qondarma iddianın aradan qaldırılması üçün fikir bildirmir, keçmiş "Qarabağ münaqişəsi"nin ləğvi ilə ATƏT-in Minsk qrupunun funksionallığının itdiyini etiraf etmirlər. Tam əksinə, yenə də əsassız şəkildə Azərbaycanı hədəfə alır, qərəzli münasibət bildirirlər. Məsələn, ABŞ-ın Ermənistandakı səfiri Kristina Kvien qərəzli şəkildə Azərbaycanı guya "güc tətbiq edən" tərəf kimi qələmə verməyə çalışır. Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaar isə 2024-cü ilin oktyabrında Ermənistanın "sülhə hazır olduğunu" bildirir və Azərbaycanın "təzyiqlərinin" sülh prosesini çətinləşdirdiyini qeyd edir. Bu, qəbulolunacaq fikir deyil - Toivo Klaar bu kimi qondarma fikirləri ilə sülhə yox, əksinə, qeyri-stabilliyə xidmət göstərir.

**İşğalçı ölkə gələn il üçün rekord həcmdə - 1,7 milyard ABŞ dolları dəyərində hərbi büdcə müəyyən edib. Ermənistan Birləşmiş Ştatlar və Fransa ilə birgə hərbi təlimlər keçirir**

**Qərbin tələskənliyi də onu sübut edir ki, sülh çağırışları səmimi davranış deyil - onlar sadəcə özlərini sülh üçün çalışan tərəf kimi qələmə vermək niyyətindədirlər**

O cümlədən Fransa prezidenti Emmanuel Makron həyasızcasına Azərbaycanın bölgədəki "hərbi fəaliyyətləri" barədə danışır. Bütün bunlar isə onu göstərir ki, Qərbin Ermənistanla birgə "sülh balladası" oxuması heç də prosesin müsbət yekuna tərəf irəlilədilməsi üçün deyil - bu kimi boğazdan yuxarı fikirlər imitasiyanın növbəti seriyasıdır...

**Qərbin Ermənistanla birgə "sülh balladası" oxuması heç də prosesin müsbət yekuna tərəf irəlilədilməsi üçün deyil - bu kimi boğazdan yuxarı fikirlər imitasiyanın növbəti seriyasıdır**

*P.SADAYOĞLU*

# Ukraynanı nə gözləyir?

## Almaniya “hakim” olmaq iddiasındadır

**Qərbin Kiyevə “raket icazəsinə” Rusiyanın ciddi cavabı kollektiv müttəfiqləri düşünməyə vadar edib. Görünən budur ki, Kremlin “ ATACMS”a “Oreşnik”lə qarşılıq verməsi gözlənilməz olduğu qədər gələcək planlarda da dəyişiklik etmək məcburiyyəti yaradıb. Proseslərin gedişi isə onu deməyə əsas verir ki, kollektiv Qərbin aparıcı ölkələrindən biri olan Almaniya nizamlanma üçün “hakimlik” etmək niyyətindədir. Kansler Olaf Şoltsun bir neçə gün öncə Rusiya lideri Vladimir Putinlə telefon danışığı, ardından isə Kiyevə səfəri müəyyən perspektivdən xəbər verir.**

## Şoltsun Kiyev səfərinin şifrəsi...

### Kiyevdən alman mesajı...

Qeyd edək ki, kansler Şolts 2 dekabrda Kiyevə etdiyi səfərdən sonra sosial şəbəkə üzərindən Rusiya prezidenti Vladimir Putinə mesaj ünvanlayıb: “Kiyevdən Putinə mesajım: Biz burada uzun müddətik. Ukraynaya olan dəstəyimiz zəifləməyəcək. Ukrayna xalqını lazım olduğu qədər dəstəkləyəcəyik”.

İlk baxışdan “sərt” təsir bağışlayan bu bəyanatın “şifrəsi” siyasi ekspertlər tərəfindən birmənalı izah olunmur. Şolts Almaniyanın Ukraynaya davamlı dəstək nümayiş etdirməkdə qətiyyətli olduğunu bildirsə də, bəzi siyasətçilər bu mesajın daha çox post-müharibə xarakterli olduğunda israr edir - mesajda Ukrayna xalqına dəstəyin ifadə edilməsi Almaniyanın gələcək mərhələdə sülh üçün çalışacağının göstəricisi kimi şərh olunur.

Bununla belə Şoltsun bəyanatını Qərbin Rusiyaya qarşı mövqeyinin davamlılığı kimi izah edənlər də var - bunu NATO-nun anti-Rusiya əhval-ruhiyəsinin nümayişi kimi də qarşılayanlar tapılır.

Qeyd edək ki, səfər Almaniya liderinin Kiyevə iki il yarımlıq fasilədən sonra gəlişi idi. Səfərdən öncə noyabrın sonunda Almaniya tərəfindən Ukraynaya son hərbi yardım paketi elan edilib. Almaniyanın müdafiə naziri Boris Pistorius bu yardım paketini açıqlayaraq Ukraynaya dəstəyin davam edəcəyini vurğulayıb. Yardım paketi 650 milyon avro dəyərindədir və əsasən hava hücumundan müdafiə sistemləri və sursat təminatını əhatə edir.

**2025-ci il fevralın 23-nə təyin edilmiş Almaniya Bundestaqına seçkilərdə önə çıxmaq üçün Şoltsun Ukrayna kartından fəal istifadə etməyə çalışdığı qeyd olunur. Kiyev səfərinin alman seçicilərinə “kanslerin Şərqi Avropadakı münaqişənin sülh yolu ilə həllinə nail olmaq cəhdləri” kimi təbliğ olunacağı gözlənilir**



### Şolts yenidən kansler olmaq üçün...

Bəzi siyasi ekspertlər Şoltsun bu səfərini həm də ölkəsində daxili auditoriyaya hesablandığını bildirirlər. 2025-ci il fevralın 23-nə təyin edilmiş Almaniya Bundestaqına seçkilərdə önə çıxmaq üçün Şoltsun Ukrayna kartından fəal istifadə etməyə çalışdığı qeyd olunur. Kiyev səfərinin alman seçicilərinə “kanslerin Şərqi Avropadakı münaqişənin sülh yolu ilə həllinə nail olmaq cəhdləri” kimi təbliğ olunacağı gözlənilir. Xatırladaq ki, Sosial Demokratlar Partiyasının və şəxsən kansler Şoltsun seçki strategiyasının tərkib hissələrindən biri məhz Ukrayna münaqişəsinin diplomatik yolla həllinə nail olunması ilə bağlıdır. Çünki Almaniyada münaqişənin dayandırılması tələbi birbaşa iqtisadi gündəmlə bağlıdır - Ukrayna böhranı sadə almanların həyatına mənfi təsir göstərib. Məsələn, Almaniya mediası yazır ki, 2024-cü ilin ilk altı ayında Almaniyada müflis olanların sayı 41 faiz artıb. Bundan əlavə, 2024-cü ilin noyabr ayında Almaniyada milli standartlara uyğun hesablanan qiymətlər 2023-cü ilin eyni ayı ilə müqayisədə 2,2 faiz artıb. Şoltsun fəallaşması isə özünü sığortalamaq üçündür - hazırki kanslerin əsas rəqibi Fridrix Merzin kansler seçilməsi Ukrayna böhranının daha da genişlənməsinə gətirib çıxara bilər. Yada salaq ki, Xristian Demokrat İttifaqının sədri Merz bundan əvvəl bəyan etmişdi ki, seçkilərdə qalib gələcəyi təqdirdə Rusiyanı 24 saat ərzində Ukraynada hərbi əməliyyatları dayandırmağa çağıracaq - Kreml imtina edərsə Almaniya Kiyevi uzaqmənzilli “Taurus” raketləri ilə təmin edə bilər. Halbuki Şolts bu raketlərin Rusiyaya qarşı işlənməsinin əleyhinədir.



### Bayden gedir, Ramştayn “yaşayır”....

Qərbin Ukrayna üzərindən apardığı siyasət isə çoxşaxəlidir - Bayden administrasiyasının siyasi ömrünə cəmisi iki ay qalmasına baxmayaraq, hələ də Ukrayna müharibəsi ilə imitasiya etmək niyyətindədir. Belə ki, dekabrın 2-də Ukraynanın müdafiə naziri Rustem Umerov amerikalı həmkarı Lloyd Ostinlə telefon danışığının baş tutduğunu bildirib. Umerov amerikalı həmkarı ilə “döyüş meydanındakı cari vəziyyəti, Ukrayna Müdafiə Qüvvələrinin əsas çağırışları və ehtiyaclarını”, həmçinin “2025-ci ilin strateji planlaşdırılmasını” müzakirə edib. “Xüsusi diqqət “Ramştayn” formatında növbəti iclasın hazırlanmasına yönəldilib. Ukrayna və onun tərəfdaşları müdafiə qabiliyyətimizi daha da gücləndirməyə və qələbəni yaxınlaşdırmağa kömək edəcək həllər üzərində işləməyə davam edirlər”, -ukraynalı nazir əlavə edib.

Xatırladaq ki, Ramştayn Müdafiə Əlaqə Qrupu (Ukrayna Müdafiəsi üzrə Ramştayn Prosesi) 2022-ci ilin aprelində ABŞ-ın təşəbbüsü ilə yaradılıb. İlk toplantı Almaniyanın Ramştayn hərbi bazasında keçirilib, buna görə də formatın adı bu bazadan götürülüb. Məqsəd Ukraynaya hərbi və logistik dəstəyin koordinasiyasını təmin etməkdir. Format çərçivəsində bu günə qədər 15-dən çox görüş keçirilib. Bütün görüşlərdə Kiyevə yardım paketləri, hərbi təchizat, təlim və dəstək mövzuları müzakirə olunub. Keçirilən görüşlərdə əldə olunan əsas qərarlara görə isə, Qərb ölkələri Ukraynaya tanklar, xüsusilə də Leopard və Abrams tankları, HIMARS sistemləri verib, hava hücumundan müdafiə sistemləri, o cümlədən Patriot və NASAMS-ları göndərib. Qeyd edək ki, Ramştayn qrupu NATO üzvləri, Avropa ölkələri və digər beynəlxalq tərəfdaşlardan ibarətdir, lakin rəsmi olaraq NATO-nun strukturunda yer almır. Bu proses Ukraynanın müdafiəsi üçün qlobal dəstəyin əsas platformalarından biridir.

**Rusiya ilə mümkün sülh danışıqları fonunda mövqeyini möhkəmlətmək istəyən Kiyevin təzyiqlərinə baxmayaraq NATO-nun bəzi ölkələri və ilk növbədə ABŞ alyansa qoşulmaq üçün Ukraynaya dəvət göndərmək istəmir**

Qeyd edək ki, münaqişə başla- yan- dan bu günə qədər Qərb sözdə Ukraynanı NATO-ya dəvət etsə də, proses rəsmiləşmir. Təbi ki, məqsəd bəllidir - NATO Nizamnaməsinin müvafiq bəndinə əsasən müharibə edən dövlət alyansın tamhüquqlu üzvünə çevrilə bilməz. Eyni zamanda, Rusiya ilə mümkün sülh danışıqları fonunda mövqeyini möhkəmlətmək istəyən Kiyevin təzyiqlərinə baxmayaraq NATO-nun bəzi ölkələri və ilk növbədə ABŞ alyansa qoşulmaq üçün Ukraynaya dəvət göndərmək istəmir. Xarici medianın yaydığı məlumata görə, blokun xarici işlər nazirlərinin dekabrın 3-də Brüsseldə başlayan iclasından öncə bu mövzu gündəmdə olmayıb - agentliyin həmsöhbətinin fikrincə,

### NATO Ukraynanı “çağırmır”...

Kiyevin üzvlük məsələsi yalnız 2025-ci ilin iyun ayının sonuna planlaşdırılan alyans sammitindən əvvəl ciddi müzakirə ediləcək. Eyni zamanda, ekspertlər ABŞ-ın hazırkı dövlət başçısı Cozef Baydenin prezidentlik müddəti bitənədək Kiyevə belə bir dəvət göndərəcəyi ehtimalını da zəif qiymətləndirir.

Ukrayna isə Qərb müttəfiqlərinə 2025-ci ildə hərbi əməliyyatları davam etdirmək üçün azı 120 milyard dollara ehtiyacı olduğunu bildirib. Məlumata görə, bu, Vaşinqtonda keçirilən alyans sammitində razılaşdırılan 40 milyard dollardan xeyli çoxdur. Bu məsələ Brüsseldə Ukrayna xarici işlər nazirinin iştirakı ilə keçiriləcək Ukrayna-NATO Şurasının növbəti iclasında qaldırıla bilər.

*P.İSMAYILOV*

# Suriyada vətəndaş müharibəsi...

## Dünya yeni miqrant axını riski altındadır

Suriyada vəziyyət gərgin olaraq qalmaqdadır. Artıq günlərdir davam edən qarşıdurmaların miqyası durmadan böyüyür. Həma vilayətində hökumət qüvvələri ilə müxaliflər arasında gedən döyüşlərdən sonra şəhər mərkəzinə 6 kilometr aralıda daha 6 yaşayış məntəqəsi nəzarət altına keçib. Latakiyada isə hökumət qüvvələri məcburi səfərbərlik elan edib. Tartus əyaləti ilə Lazkiyenin Banyas və Ceble rayonlarına sursat və silah paylanılıb. Türkiyə mətbuatı yazır ki, könüllü olmaq istəyənlərə 3 milyon Suriya lirəsi - təxminən 200 dollar ekvivalentində pul verilir. Bu məbləğ Suriyada dövlət qulluqçusunun maaşının təxminən 10 misli qədərdir. Könüllü şəkildə hökumət qüvvələrinə qoşulmayan 18-40 yaş arası insanlar isə bəzi məntəqələrdə saxlanılıblar. Məhəllələrdə yol keçid məntəqələri quraşdırılıb. Xüsusilə gənclərin şəhərləri tərk etdiyi müşahidə olunur.

Qeyd edək ki, müxalif silahlı qruplar Hələb və İdlib vilayətlərinin ardınca Həma vilayətinin 16 yaşayış məntəqəsini də alıb. Hələbin şəhər mərkəzinin böyük hissəsini və bütünlüklə İdlib vilayəti müxalifətin nəzarətinə keçib.

Noyabrın 27-dən dekabrın 2-nə kimi olan tarixlərdə hücumlar zamanı 81 nəfər ölüb, 304 nəfər yaralanıb.

### İtaliyalı nazirdən xəbərdarlıq...

İtaliya baş nazirinin müavini, xarici işlər naziri Antonio Tajani Qəzzaya humanitar yardımın gücləndirilməsi ilə bağlı Misirin paytaxtı Qahirədə keçirilən Qahirə Nazirlər Konfransında Suriya müharibəsinin yeni miqrasiya böhranı riski yaratdığını bildirib. O qeyd edib ki, artıq bir milyon suriyalı qaçqın Livana keçib. Ən böyük risk nəticə etibarı ilə yeni miqrasiya böhranının ortaya çıxmasıdır. “Vətəndaş müharibəsinin uzun müddət davam edəcəyi təqdirdə bu, qaçılmazdır. Bu, Avropaya birbaşa təsir göstərə bilər”, - deyə italiyalı nazir bildirib.

### Əsəd İsrailə müraciət edib - dəstəkçisini itirə bilər...

Xarici mətbuat isə Suriya Prezidenti Bəşər Əsədin “Heyət Təhrir əş-Şam” (HTŞ) qruplaşmasına qarşı mübarizədə İsraildən yardım istədiyini yazıb. Bildirilir ki, Əsəd Avropadakı əlaqələri sayəsində bu müraciəti həyata keçirib. Müraciətin məqsədi kimi, Əsədin “Heyət Təhrir əş-Şam” qruplaşmasına qarşı güclü dəstək axtarması göstərilir.

İsrailin bu məsələdəki mövqeyi isə hələ də bəlli deyil. Siyasi analitiklər Təl-Əvivin bu müraicətdən istifadə edərək Yaxın Şərqdəki mövqelərini daha da möhkəmləndirməsinin mümkünlüyünü önə çəkir. Bir sıra siyasətçilər isə Əsədin bu müraciətini son çıxış yolu kimi görür - İsrail ilə müttəfiq olacağı təqdirdə Əsədin bəzi “dəstəkçilərdən” imtina etməli olduğu da xatırlanır. Qeyd edək ki, Əsədi dəstəkləyən bir sıra qüvvələr İsraili birmənalı şəkildə qəbul etmir.

### Hava limanı üsyançıların əlindədir

Üsyançılar isə Hələb beynəlxalq hava limanı ilə yanaşı, ölkədəki mühüm strateji əhəmiyyətə malik daha 4 hərbi hava limanını da nəzarətə götürüblər. Neyrab, Kuveyres, Minaq və Əbu əl-Duhur hava limanları hökumət qüvvələrinin əlindən alnıb. Hələb beynəlxalq hava limanının üsyançıların əlinə keçməsi, Suriyanın hava məkanının təhlükəsizliyinə ciddi təsir göstərib. Üsyançılar burada yerləşən hərbi infrastruktur və texnikanı öz məqsədləri üçün istifadə etməyə çalışırlar.

### İran rəsmi şəkildə Əsədi dəstəklədiyini bəyan etdi

İranın xarici işlər naziri Abbas Əraqçı isə Dəməşq və Ankaradakı təmaslarından sonra dövlət televiziyasına mühüm açıqlamalar verib. Suriyadakı son hadisələrin aktiv müzakirəsində iştirak edən Əraqçı bildirib ki, Bəşər Əsədə Tehranın Suriya ordusu və dövlətinə qəti və birmənalı dəstək mesajını çatdırıb. “Suriya dövləti İraq-İran müharibəsi zamanı bizim yanımızda olduğu kimi, bu gün də biz Suriyanın yanındayıq”.

Türkiyə səfərinə də toxunan Əraqçı regional məsələlərdə Türkiyə ilə hər zaman yaxın əməkdaşlıq edildiyini bildirib. “Regional mövzularda fikir ayrılıqlarımız qədər ortaq nöqtələrimiz də var. Biz Türkiyə ilə razılaşırıq ki, Suriya terror təşkilatlarının bazasına çevrilməməlidir. Suriyanın yenidən vətəndaş müharibəsi astanasına sürüklənməsinin qarşısını almaq üçün də görüşlər keçirdik. Biz əlaqələrimizi və əməkdaşlığımızı davam etdirmək qərarına gəldik. Bu çərçivədə Astana prosesini irəlilətmək üçün razılaşdıq”.

Qeyd edək ki, məsələ ilə bağlı gələn həftə Dohada müzakirələr davam etdiriləcək.



### Tel-Rifata qayıdış...

Uzun müddətdir ki, terror təşkilatı PKK/YPG-nin nəzarətində olan Tel-Rifat şəhəri də azad edilib. Suriya Milli Ordusu qüvvələri 4 nöqtədə başlatdıqları əməliyyatla iki gün öncə Tel-Rifat rayon mərkəzinə daxil olub. Terror təşkilatı PKK/YPG üzvləri mövqelərini tərk edərək qaçdıqdan sonra Tel-Rifatın rəsmən azad edilməsi xəbəri bildirilib. Təxminən 8 ildir terror təşkilatının nəzarətində olan Tel-Rifatın azad edilməsi ilə Azaz, Mare və Afrinə köç etmək məcburiyyətində qalan minlərlə suriyalı Tel-Rifata dönməyə başlayıb.

### Müharibə dərinləşsə...

Siyasi dairələr məsələnin qısa zamanda həlli ilə bağlı mühüm müzakirələrin təşkili üçün səfərbər olublar. Suriya böhranının dərinləşməsi başda Qərb olmaqla bütövlükdə region üçün çətinliklər formalaşdıracaq. İlk növbədə, miqrant axınının yenidən güclənməsi müşahidə ediləcək ki, indiki şəraitdə xüsusilə Avropanın onları qəbul etməsi qeyri-mümkün görünür. Digər tərəfdən, onsuz da Mərkəzi Avropada baş verənlərlə bağlı yaranmış enerji böhranı Aralıq dənizi hövzəsində bu kimi müharibələrdən sonra daha da kəskinləşə bilər. Bundan xilas olmaq üçün isə region ölkələri operativ iş aparır...

*SADİQ*

# Bir ömrün işıqlı portreti

Fikrin ən narahat anları, gərginliyi düşüncələrdir. Lakin böyük düşüncələr adətən, təkliyin sakitliyində doğulur. Sükut və narahatlıq belə bir vəhdətdə fikrin və duyğuların pərvaz etməsi üçün axtardığı ənginlikdə təzadmı təşkil edir? Bəlkə də bu suala onun şəxsiyyəti, ömür yolu haqqında ifadə etməyə çalışdığımız aşağıdakı düşüncələr birlikdə cavab verir...

Tale elə gətirdi ki, 2004-cü ildə "İrəvan ədəbi mühiti" mövzusunda elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işi götürməli oldum. Elmi rəhbərim tanınmış alim, filologiya elmləri doktoru, professor Qara Namazov idi. Tədqiqat işimlə əlaqədar elmi rəhbərim hansı arxivlərdən istifadə etməyimlə maraqlandı və əlavə mənbələrdən də yararlanmağı məsləhət gördü. Çünki ən mötəbər mənbələr əlçatmaz olduğundan Qərbi Azərbaycandan olan və vaxtilə bölgənin ədəbi-mədəni, ictimai mühitində fəal iştirak etmiş ziyalılarla - Hidayət Orucov, Həsən Mirzəyev, İsrafil Məmmədov, Teymur Əhmədov, o cümlədən uzun illər "Sovet Ermənistanı" qəzetində işləmiş, tanınmış qocaman jurnalist, maarif xadimi Tapdıq Novruzovla da əlaqə saxlamağımı bildirdi. Elə həmin vaxtdan Tapdıq müəllimlə ünsiyyətimiz yarandı. Hər dəfə Tapdıq müəllimlə olan ünsiyyətimiz elə bil adama sadəliyin, müdrikliyin, xeyirxahlığın sirrini öyrədirdi. Hərdən öz-özümə düşünürəm ki, nə yaxşı ki, vaxtında Tapdıq müəllimlə və digər ziyalılarımızla görüşüb, həmsöhbət olub, onların Qərbi Azərbaycan ədəbi-mədəni, ictimai mühiti ilə bağlı fikir və düşüncələrini, xatirələrini almışam. Bu qədim yurd yerlərimizin ədəbi-mədəni, ictimai mənzərəsini əsərlərimdə müəyyən qədər canlandıra bilməyimdə Tapdıq müəllimin, eləcə də digər ziyalılarımızın da öz payı vardı.



*Cəlal ALLAHVERDİYEV*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Acı təəssüf hissi ilə qeyd edim ki, Tapdıq müəllim bu gün həyatda olmasa da, vaxtilə onunla olan tanışlığım, qədim yurd yerlərimizdən, soydaşlarımızın başlarına gətirilən tarixi cinayətlərdən, Qərbi Azərbaycan ədəbi-mədəni mühitindən və İrəvanda Azərbaycan dilində nəşr edilən yeganə mərkəzi mətbuat orqanı olan "Sovet Ermənistanı" qəzeti barədə etdiyimiz söhbətlər məndə bu şəxsiyyət haqqında olan acılı-şirinli xatirələri, onun qələmə aldığı və 2000-ci ildə "Günəş" nəşriyyatı tərəfindən nəşr olunmuş "Orda yurdumuz qaldı" adlı kitabını, eləcə də müxtəlif vaxtlarda ayrı-ayrı dövri nəşrlərdə çap olunmuş və əldə edə bildiyimiz məqalələrini bir yerə toplayıb yenidən nəşr etdirmək fikri yaratdı. Xalqa xidmət edib, ömrünü başa vurmuş adamları xatırlayıb sevə-sevə tanıtmaq, örnək kimi sevdirmək həm də vətəndaş-insan borcunun ödənişidir.

Tapdıq Həmid oğlu Novruzov 1920-ci ildə Qərbi Azərbaycanın Allahverdi rayonunun Böyük Ayrım kəndində dünyaya gəlmişdir. Bu o zaman idi ki, Qərbi Azərbaycan yenicə sovetləşmişdi. Uşaqlıq illərinin ən qayğılı çağlarında balaca Tapdıq öz mənəvi zövqünü xalqın sinəsindən qaynayan və əsrlərin yaratdığı qatlardan süzülüb gələn cazibəli bir aləmdə anası Əminənin işıqlı və sehrli nağılları dünyasında tapırdı. Gələcək pedaqoqun, jurnalistin, publisistin ilk bədii söz müəllimi də elə Əminə xanım olur. Amma gənc Tapdığın analı dünyasının varlığı, sevinci çox çəkmir. Üç qardaş, bir bacı çox erkən ana qayğısından və nəvazişindən məhrum olur.. Atası Həmid kişi o vaxtlar 1934-1935-ci aclıq illərində gecəsini gündüzə, gündüzünü gecəyə qatıb ailənin qayğısına qalır, onların aclıq çəkməməsi üçün əlindən gələni əsirgəmir. Həmid kişi uşaqlara o qədər həssas qayğı və nəvazişlə yanaşarmış ki, uşaqlar anasızlıq dərdini, nisgilini heç zaman hiss etməsinlər...

Tapdıq müəlim texnikumda təhsil aldığı illərdə qəzetdə imtahanlardan uğurlu nəticə əldə etmiş əlaçı tələbələrin haqqında dərc olunmuş məlumatlarda onun da adına rast gəlinir. Texnikumda "İrəli", "Şərq pioneri" və digər adlar altında çıxan divar qəzetlərində gənc tələbə Tapdıq tez-tez müxtəlif səpgili yazılarla çıxış edir, qısa zaman ərzində həmin divar qəzetlərini oxucuların sevimlisinə çevirir. Həmin dövrlərdə yerlərdə çıxan divar qəzetlərinin müxbirləri və redaktorları həm də Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Qızıl şəfəq" qəzetinin müxbirləri hesab edilirdi. Ümumiyyətlə, "Qızıl şəfəq" qəzetinin ahəngdar fəaliyyət göstərməsində İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun müəllim və tələbə kollektivinin danılmaz rolu vardır. Qəzetin azərbaycanlı oxucular arasında yayılmasında, tirajının artırılmasında bu təhsil ocağının müəllim və tələbə heyəti böyük fədakarlıq göstərmişdi. "Qızıl şəfəq" qəzetinin tirajının artırılması və yayılması kampaniyasının uğurla həyata keçirilməsində texnikumun ən fəal tələbələrindən və müxbirlərindən biri də Tapdıq müəllim olmuşdur. Tapdıq müəllimin texnikumdakı qəzetçilik fəaliyyəti, topladığı təcrübə sonrakı illərdə onun jurnalistlik fəaliyyətində çox böyük rol oynamışdır. Tapdıq müəllim 1939-cu ilin iyun ayında İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirib təyinatla öz doğma rayonuna - Allahverdiyə, Böyük Ayrım məktəbinə ibtidai sinif müəllimi göndərilir.

1940-1941-ci illərdə isə yeddiillik Böyük Ayrım kənd məktəbində müəllim işləyir. Lakin yenicə həyata xoşbəxt vəsiqə alan Tapdığın bu xoş günləri də uzun sürmür. 1942-ci il yanvarın 11-də Böyük Vətən Müharibəsinə yollanır. Müharibədə göstərdiyi şücaətə görə 1942-ci ildə "İgidliyə görə" medalı, 1943-cü ildə "Şöhrət" ordeni, 1944-cü ildə isə "Böyük Vətən Müharibəsi" ordeni ilə təltif edilmişdir. 1945-ci i mayın 2-də Berlinin azad edilməsi uğrunda gedən qanlı döyüşlərdə iştirak edən Tapdıq müəllim həmin il mayın 3-də Reyxstaqın divarları üzərində bu sözləri yazmışdır: "Zaqafqaziyadan Berlinə qədər gəlib çatdım". Müharibədən sonra məşhur rus yazıçısı Yevgeni Dolmatovski Reyxstaqın divarları üzərindəki imzaları köçürmüş, 1972-ci ildə rus dilində "Avtoqrafı Pobedı" kitabını yazmışdır. Həmin kitabın 83-cü səhifəsində Tapdıq müəllim haqqında da ayrıca yazı verilmişdir.

1945-ci il iyun ayının 17-də 4 illik odlu-alovlu müharibədən qayıdan Tapdıq müəllim öz pedaqoji fəaliyyətini davam etdirir. 1945-ci ilin sentyabrında İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycanlı şöbəsinə daxil olur. 1948-ci ildə həmin institutun 3-cü kursunu bitirdikdən sonra, 1948-ci ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsi Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki ADPU) köçürülür. 1948-ci ilin yanvarından etibarən təhsilini indiki APİ-də (qiyabi) davam etdirməyə məcbur olur. O 1950-ci ildə həmin institutun tarix fakültəsini bitirir və həmin ildə də Böyük Ayrım kənd 8 illik məktəbinə direktor təyin edilir. 1950-ci ilin avqustundan 1964-cü ilin avqustuna qədər həmin məktəbin direktoru vəzifəsində çalışır. Milli düşüncə və maraqların Tapdıq müəllimə məxsus hüdudları və ölçüləri onun maarifçilik və ictimai fəaliyyətində nəinki qorunur, yeni bir dərinlik və vüsət də kəsb edir. O Qərbi Azərbaycanda soydaşlarımızın taleyinə və gələcəyinə bütünlükdə milli müstəvidə, hətta qlobal miqyasda həmişə nəzər salırdı.

Tapdıq müəllim təkcə maarifçilik sahəsində deyil, eyni zamanda Qərbi Azərbaycanda milli mətbuatımızın inkişafında, onun ahəngdar fəaliyyətinin təmin olunmasında da böyük zəhməti olmuşdur. O 1946-cı ildən 1963-cü ilin sonlarına kimi Qərbi Azərbaycanda Azərbaycan dilində çıxan yeganə mətbuat orqanı olan "Sovet Ermənistanı" qəzetinin Allahverdi rayonu üzrə ən fəal bölgə müxbirlərindən olmuşdur. Gənc müxbir Tapdıq Novruzov hər gün kəndləri, mis mədənlərini pay-piyada dolaşıb əsasən fəhlə əməyi, kolxozun işi haqqında yazır, eləcə də qəzetin xüsusi müxbiri kimi iqtisadi mövzularda məqalələri qəzetə göndərirdi. O 17 ilə yaxın qəzetin bölgə üzrə müxbiri vəzifəsini uğurla yerinə yetirmiş, milli maraqlarımızın ifadəçisi kimi çıxış etmişdir. Tapdıq müəllimin Allahverdi rayonu üzrə qəzetin müxbiri təyin edilməsi həm də həmin bölgədə ədəbi-mədəni mühitin dirçəlişinə və çiçəklənməsinə təkan vermişdir. Tapdıq müəllimin bir sıra dövrü mətbuat orqanlarında çap olunmuş məqalələri bu gün də öz aktuallığını qoruyub saxlayır. Onun Gümrüdə çıxan "Banvor" ("Fəhlə"), Allahverdi rayonunda çıxan "Lori", Bakıda nəşr edilən "Azərbaycan məktəbi" və s. qəzet və jurnallarda müxtəlif sahələrə dair xeyli yazıları dərc olunmuşdur.




Tapdıq müəllimdə gələcək nəsillərə nümunə olacaq milli vicdan və məsuliyyət hissi, ictimai-pedaqoji bir intizam var idi. Lakin Tapdıq müəllimin adı həyatımızın mənəvi güzgüsü olan bu mətbuat ilə məhdudlaşmır. Sözün həqiqi mənasında onun fəaliyyətində hər şeydən əvvəl milli maarifçiliyimizin, pedaqoji fikrin daha da dərinləşən və zənginləşən öz məzmunu və öz vüsəti görünür. Tapdıq müəllimin böyütdüyü övladlar onun ikinci həyatıdır. Bu mənada, oğlu Vahid müəllim, qızı Zenfira xanım kimi övladlar dünyaya bəxş edən başlıcası isə bütün varlığı ilə Ulu Tanrıya olan bağlılığını ifadə edir. Dünyada çox az adam taplar ki, onda istedadla bərabər insanlıq da vəhdət təşkil etsin. Çünki şəxsiyyət bütövlüyünün və ucalığının zirvəsinə yüksəlişin əsas meyarı Vətənə, xalqa sonsuz məhəbbət, təmənnasız xidmətdir. Böyük alim Yaşar Qarayev yazır ki, "Meyar-şəxsiyyətdir". Şəxsiyyət yoxdursa "mən" yoxdur. Bəli, bütün insani keyfiyyətlər "mən"də birləşəndə şəxsiyyət olur. Böyük şəxsiyyət ucalığının zirvəsində dayanan bənzərsiz şəxsiyyətlərdən biri də iqtisad elmləri doktoru, professor Vahid Novruzovdur. Onda həm də, sözün əsl mənasında, ata-babalarımıza məxsus ağsaqqal ləyaqəti vardır. Tapdıq müəllim bu gün də, sonra gələcək nəsillərin həmsöhbəti olub, sözü-söhbəti bitib-tükənməyən ömür qatarının əbədi müsafirlərindən biri kimi xatırlanacaqdır.

Tapdıq müəllimin oğlu Vahid Novruzov bu gün Azərbaycan elmi-ictimai həyatında çox böyük ləyaqətlə fəaliyyət göstərir. İnsanın zahiri nurluğu onun iç dünyası ilə vəhdət təşkil edəndə, adətən, simasındakı nur, ziya onun səmimiyyətini, xeyirxahlığını, ən

# Milli-mənəvi dəyərlərimizi necə qoruyuruq?

## Dövlətçiliyimizin möhkəmləndirilməsində mühüm amil...

**Uzun inkişaf yolu keçmiş dövlətçilik tariximiz, adət-ənənələrimiz Azərbaycan vətəndaşı olaraq hər birimizin milli kimliyini əks etdirir. Zəngin milli adət-ənənələrimiz, eləcə də müasir çağırışlara cavab verən elm və mədəniyyətimiz bütün soydaşlarımızın qürur mənbəyidir. Azərbaycan bu istiqamətdə dünyanın sayılıb-seçilən ölkələri arasında özünəməxsus yer tutmağı bacarıb. Bu gün dünyada tolerantlıq, ədalət prinsiplərini üstün tutan ölkə kimi şöhrət tapan ölkəmiz bu kimi yüksək dəyərləri öz tarixinə, adət-ənənələrinə sahib çıxaraq əldə edib. Bildiyimiz kimi, Azərbaycan özünəməxsus qədim maddi və mənəvi irsi, mədəni dəyərləri olan bir ölkədir. Milli mədəniyyətin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

### Dövlətçiliyimizin tarixi çox qədimdir...

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən folklorşünas Məhəmməd Məmmədov bildirib ki, yaşadığı coğrafiyadan asılı olmayaraq, hər bir azərbaycanlı öz tarixini, mədəniyyətini, özünün milli keçmişini, dövlətçilik ənənələrini bilməli və yaşatmalıdır. Onun sözlərinə görə, Azərbaycan tarixi türk tarixindən ayrı öyrənilə bilməz: "Tariximiz Şumerdən üzü bəri böyük bir yol keçib. Dilimizin, folklor motivlərinin bağlılığı bunu sübut edir. Azərbaycan dövlətçiliyinin tarixi əslində bununla bağlıdır. Miladdan öncə ən azı 2000 illik dövrdə Azərbaycan dövlətlərinin tarixini izləmək mümkündür. Miladdan sonra Azərbaycan ərazisində Manna, Midiya ondan əvvəl Kutilər, Lullubilər və s. olub. Qafqaz Albaniyasının da ən böyük xalqı Azərbaycan türkləri olub. Dədə Qorqud motivləri eradan əvvələ gedib çıxır. Azərbaycan qədim türk vətənidir. Bəzən deyirdilər bizim dövlətimiz 18-20-ci ildə Milli Azərbaycan Xalq Cümhuriyyəti ilə başlayıb. Azərbaycan Xalq Cümhuriyyəti sadəcə dövlətçiliyimizin bir mərhələsidir. Demokratik Cümhuriyyət dövrüdür. Amma ondan əvvəl Səfəvilər, Avşarlar, Qacarlar, Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular ayrı-ayrı zamanların Azərbaycan tarixində özünəməxsus yeri olan dövlətlərimizdir. Nadir şah Əfşarın vəfatından sonra yaranan Azərbaycan xanlıqları ərazisinə görə o qədər böyük olmasa belə, hərəsinin ayrılıqda mühüm tarixi inkişaf mərhələsi mövcuddur. Bizim dövlətçiliyimizin tarixi çox qədimdir".



### Milli dəyərlərimizə üz çevirmək yaxşı heç nə vəd etmir

Folklorşünasın sözlərinə görə, milli dəyərlərimizə, adət-ənənələrimizə biganə münasibət gələcəyimiz üçün yaxşı heç nə vəd etmir: "Tarixdən məlumdur ki, öz soykökünə, tarixinə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər müəyyən zaman kəsiyində "əriyib" yox olub və tarix səhnəsindən birdəfəlik siliniblər. Hər hansı bir xalqı, dövləti məhv etmək üçün onu milli dəyərlərindən ayırmaq kifayətdir. Bəs milli dəyərlər deyəndə nə başa düşülməlidir? Milli ideologiya, milli tarix, milli dil, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, folklorumuz: hansı ki bura bizim yaddaşımız - fərd yaddaşı, etnos yaddaşı, millət, xalq yaddaşı daxildir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir".

### Milli mənliyimizi qorumaq vacib şərtlərdəndir

M.Məmmədov qeyd edib ki, bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır: "Bu mənada Azərbaycan ailəsi də başqa ailələrdən fərqlənir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, ehtiramla davranmaq, kiçiklərə qayğı, diqqət əsas göstəricilərdəndir. Bizim gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə yad edilən nümunəvi ailələrimiz çoxdur. Bu ailələr Azərbaycan xalqına sözün həqiqi mənasında böyük şəxsiyyətlər, dahilər bəxş edib.

Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Biz hər zaman qloballaşma adı altında digər xalqların adət-ənənələrinə zidd olan, milli mentalitetə xas olmayan dəyərlərə qarşı mübarizə aparmalıyıq. Təbii ki, bu mübarizədə milli mənliyimizi qorumaq ən vacib şərtlərdəndir".

*Yeganə BAYRAMOVA*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Şuşada növbəti beynəlxalq tədbir

## İslam Ölkələrinin Gənc Alimləri "Gənclər Paytaxtı"nda...




"Gənclər Paytaxtı" Şuşa şəhərində İslam Ölkələrinin Gənc Alimlərinin Forumu keçirilib.

Forum çərçivəsində İslam mədəniyyəti və sivilizasiya, davamlı inkişaf, texnoloji yeniliklər və yaşıl gələcək naminə, süni intellekt, beşinci sənaye inqilabı, islam elm və təhsilinin əhəmiyyətli rolu mövzusunda müzakirələr aparılıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik Dilqəm Tağıyev İslam dünyasının zəngin dövrə sahib olduğunu bildirib. O, İslam ölkələrinin alimlərinin dünya elminə böyük töhfələr verdiyini vurğulayıb. Akademikin sözlərinə görə, Azərbaycanda elmi müəssisələr sayı kifayət qədər çoxdur. D.Tağıyev hazırda Azərbaycanın 51 universitetində təhsil alan 320 mindən çox tələbənin 96 faizinin gənclər olduğunu deyib.

Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Ramil Cabbarov İslam dünyasından olan gənclərin elm və təhsil sahəsində bir araya gələrək, uğurlu işlər görəcəyinə inandığını bildirib. O, bu tədbir sayəsində İslam ölkələri arasında əməkdaşlığın sıx inkişaf edəcəyini diqqətə çatdırıb.

Mədəniyyət Nazirliyinin təşkil etdiyi "Yaradıcılıq marafonu" proqramında isə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdən olan müxtəlif istedadlı və yaradıcı gənclər dörd sahə - animasiya, film, moda, dizayn üzrə fərqli məhsullar hazırlayıblar.

Şuşada İslam dünyasının "Gənclər Paytaxtı"nın bağlanış mərasimi dekabrın 4-də keçiriləcək.

# Taksi qiymətləri yenidən bahalaşdı...

## 40 faiz artım var

**Son günlər ucuzlaşan taksi qiymətləri yenidən öz köhnə vəziyyətinə qayıdıb. Belə ki, taksi operatorlarının qiymətləri növbəti dəfə artıb. Sərnişinlər bildirib ki, ötən ayın ortalarından etibarən qiymətlərdə 30-40 faiz artım var.**




### Yaxın günlərdə qiymət bir az da arta bilər...

Qiymət dəyişikliyini sürücülər də təsdiq edirlər. Qiymətlərdə yaranan fərqin isə şirkətlər tərəfindən tənzimləndiyini bildirirlər. Sürücülər qiymət artmasının bəzi səbəblərinin olduğunu bildirirlər. Onlar hətta yaxın günlərdə qiymətin bir az da artacağını istisna etmirlər.

### Qiymətlər qısamüddətlik ucuzlaşmışdı

Məsələ ilə bağlı taksi şirkətlərindən isə bildirilib ki, ötən ay COP29 tədbiri ilə əlaqədar olaraq Bakıdan əhalinin kütləvi axını olub. Bu, yollarda tıxacların azalması səbəblərindən biri idi. Nəticə olaraq, taksi xidmətlərinin qiymətləri də müəyyən dərəcədə azalıb. Amma hazırda iş və dərslərin olması, tıxacların artması ilə əlaqədar olaraq taksilər də öz iş tempinə qayıdıb. Buna görə də, qiymətlərdə müəyyən qədər dəyişikliklər var.

### Taksidən istifadə edən 5,25 milyon sərnişin azalıb

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən nəqliyyat eksperti İlqar Hüseynli bildirib ki, taksilərlə bağlı həyata keçirilən son tənzimləmələr qısamüddətli səfərlərdən istifadə edən sərnişinlərin tədricən ictimai nəqliyyata üstünlük verməsi ilə nəticələnib. Onun sözlərinə görə, Azərbaycanda taksidən istifadə edənlər arasında 5,25 milyon sərnişin azalması qeydə alınıb. Onlardan 50 faizi avtobusa, 20 faizi isə metroya keçid edib: "Qeyd edək ki, sosial şəbəkələrdə də taksi sürücüləri sərnişinlərin azaldığını təsdiqləyirlər. Onların sözlərinə görə, nə komfort, nə də ekonom kateqoriyasında əvvəlki qədər sərnişin olmur. Hətta sürücülərin bəziləri sərnişinlərin az olması səbəbindən gündəlik tələb edilən kvotanı da doldura bilmirlər".

**Taksidən istifadə edənlər arasında 5.25 milyon sərnişin azalması qeydə alınıb. Onlardan 50 faizi avtobusa, 20 faizi isə metroya keçid edib**

### Şirkətlər qiymətləri qaldırır...

Ekspertin fikrincə, şirkətlər aldıqları maşınların xərcini çıxarmaq üçün qiymətləri yüksəldir. Bu da təbii ki, insanların əksəriyyətinə sərf etmir: "Əvvəllər taksi şirkətləri rahat şəkildə hər qeydiyyatdan keçəni işə götürürdü. İndi isə yalnız tələblərə cavab verən və imtahandan keçib sertifikat alan sürücüləri işə qəbul edirlər. Şirkətlərə də çox böyük cərimələr tətbiq edildi. Avtomobillərin ili də artıq yeni olmalıdır. Yeni maşınların da qiyməti daha yüksək olduğu üçün hər adam avtomobil alıb taksi kimi sürə bilmir. Artıq şirkətlər özləri yeni maşınlar gətirirlər. Bu zaman da şirkət maşınlara xərclədiyi pulu çıxarmaq üçün qiymətləri yüksək təyin edir. Taksi qiymətləri aşağı olanda insanlar vərdiş etmişdilər. Amma qiymətlər yüksəldikcə artıq insanlar hər dəfə taksiyə minə bilmirlər".

### "Sərnişin olanda da sürücü getmir"

İ.Hüseynli sərnişinlərin taksidən narazılıq etdiyi məqamlara da toxundu: "Düzdür, sürücülər sərnişin azaldığı üçün narazılıq edirlər. Lakin sərnişinlərin azalmasında taksi sürücülərinin də rolu az deyil. Çünki sərnişin olduğu zaman onlar problem yaradırlar, getmək istəmirlər. Məsələn, günün pik saatlarında bir çox sürücü maşın sürmək istəmir. Sərnişinlər də şikayət edir ki, taksi çağırırıq, yarım saat, bəzən ondan da çox gözləyirik. Lakin sonda sürücü ya qiymətin sərf etmədiyini, ya da həmin əraziyə, məsafəyə getmək istəmədiyini bildirir. Qiymətlər nə qədər yüksəlmiş olsa da, taksi sürücüləri yenə də deyirlər ki, şirkətlər qiymətləri çox aşağı təyin edir. Düşünürəm ki, tədricən bütün bu məsələlər öz həllini tapacaq. İctimai nəqliyyat da düzəldikdən sonra insanlar taksidən uzaqlaşacaqlar".

**Sərnişinlərin azalmasında taksi sürücülərinin də rolu az deyil. Çünki sərnişin olduğu zaman onlar problem yaradırlar, getmək istəmirlər. Məsələn, günün pik saatlarında bir çox sürücü maşın sürmək istəmir**



## Gimnastlarımız Serbiyada beynəlxalq turnirdə iştirak edəcəklər




Azərbaycanın idman gimnastları Serbiyanın Novi Sad şəhərində keçiriləcək "Memorial Laza Krstic and Marica Dzelatovic" beynəlxalq yarışında iştirak edəcəklər.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yığmanın heyətində Nazənin Teymurova, Rəsul Əhmədzadə, Aytən Məmmədova, Dəniz Əliyeva, Xədicə Abbaszadə, Aydın Əlizadə, Albina Aliyeva, Leyla Məmmədzadə və Aynaz Məcidzadə bacarıqlarını nümayiş etdirəcəklər.

Turnir dekabrın 5-8-də təşkil olunacaq.

## Bədii gimnastika üzrə XXIX Bakı çempionatı və birinciliyi keçiriləcək

Dekabrın 9-11-i aralığında bədii gimnastika üzrə XXIX Bakı çempionatı və birinciliyi keçiriləcək.

"Report" xəbər verir ki, bu barədə Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidməti məlumat yayıb.

Milli Gimnastika Arenasında təşkil olunacaq yarışda 6 idman klubundan 95 gimnast balacalar (2014-2016-cı il təvəllüdlülər), yeniyetmələr (2011-2013-cü il təvəllüdlülər) və gənclər (2010-2011-ci il təvəllüdlülər) yaş kateqoriyaları üzrə mübarizə aparacaqlar.



## "Neftçi" 2800 manat cərimələnib

AFFA İntizam Komitəsi "Neftçi" klubunu 2800 manat cərimələyib.

"Report" xəbər verir ki, buna Misli Premyer Liqasının XV turunda "Qarabağ"la keçirilmiş Azərbaycan derbisində yaşananlar səbəb olub.

"Ağ-qaralar" sözügedən matçda azarkeşlərin meydana kənar əşya atmasına görə 800, fanatların kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirməsi (bu hal ikinci dəfə yaşanıb) ucbatından 500 manat ödəyəcək. Bakı klubu meydana vaxtında çıxmadığı üçün görüş gec başlayıb və meydan sahibləri 1500 manat cərimə olunub.

"Köhlən atlar" isə tərəfdarları pirotexniki vasitədən istifadə etdiyinə görə 1500 manat ziyana düşüb. Hazırkı ölkə çempionuna azarkeşlərinin kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirməsi (bu hal ilk dəfə yaşanıb) üzündən xəbərdarlıq edilib.

Qeyd edək ki, qarşılaşma "Qarabağ"ın qələbəsi ilə yekunlaşıb - 3:0.

## Azərbaycan Triatlon Federasiyası testlər təşkil edib



Azərbaycan Triatlon Federasiyası (ATF) milliyə yeni idmançılar seçmək məqsədilə testlər təşkil edib.

ATF-dən "Report"a verilən məlumata görə, bu barədə qurumun baş katibi Seymur Hüseynov deyib.

Federasiya rəsmisi milliyə yeni idmançıların seçimi ilə bağlı fikirlərini bildirib:

"Son illərdə triatlon Azərbaycanda əhəmiyyətli dərəcədə inkişaf edib və idmançılar arasında bu sahəyə maraq durmadan artır. Əvvəllər triatlonla məşğul olan hər bir şəxs milliyə daxil olmaq üçün müraciət edə bilirdi. Lakin hazırda vəziyyət fərqlidir. Artıq idmançılar və klublar arasında ciddi bir seçim prosesi həyata keçirilir. Bu, triatlonun ölkədə daha da inkişaf etməsi və kütləviliyindən xəbər verir. Testlər yalnız fiziki hazırlıq səviyyəsini yoxlamaqla kifayətlənmir, eyni zamanda idmançıların texniki və taktiki bacarıqlarını da qiymətləndirir. Məşqçi heyəti hər bir idmançının fərdi göstəricilərinə diqqət yetirərək, onların potensialını müəyyən etmək və ən yaxşıları seçmək məqsədi güdür. Seçim prosesi triatlonun inkişafında mühüm bir mərhələdir. Beləliklə, Azərbaycan triatlonu yalnız kütləviliyi ilə deyil, həm də yüksək peşəkarlıq səviyyəsi ilə fərqlənməyə başlayır".

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4795
Sifariş: 286
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli